RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 129 (8445) ÇƏRŞƏNBƏ AXŞAMI, 7 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan beynəlxalq siyasətin zirvəsindədir

## Dünyada bizə böyük hörmət və dəstək var

*İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak ediblər.*

*AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlət başçısına raport verdi.*

*Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin modul tipli hospitalı 10 korpusdan ibarətdir və burada 800 xəstəni qəbul etmək üçün hər cür imkan var. Modul tipli hospitalda yaradılan şərait müalicə işi ilə yanaşı, laborator müayinələri də qısa müddətə və keyfiyyətlə aparmağa imkan verir. Belə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.*

*Azərbaycan dövlətinin koronavirus pandemiyasının yayıldığı ilk günlərdən onunla mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılmasına başlanıldı ki, onlardan da bir neçəsinin artıq açılışı olub. Ümumilikdə, yaradılacaq modul tipli xəstəxana kompleksləri ölkənin səhiyyə sisteminə əlavə 2000 çarpayılıq ehtiyat yaradır.*

*Tibb ocağında yaradılan şəraitlə tanışlıqdan sonra dövlət başçısı Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Xəzər" Televiziyasına müsahibə verib.*

## Prezident İlham Əliyevin müsahibəsi

**- Cənab Prezident, vaxt tapıb suallarımızı cavablandırdığınıza görə təşəkkür edirəm. Birinci sualım bugünkü modul tipli xəstəxana ilə bağlı olacaq. Yaradılan şəraitlə tanış oldunuz. Bununla bağlı təəssüratlarınızı bölüşməyinizi xahiş edirəm.**

- Təəssüratlar çox müsbətdir. Əsas odur ki, bu xəstəxana çox qısa müddət ərzində ərsəyə gəlib və burada 800 xəstənin yerləşməsi nəzərdə tutulur. Nəzərə alsaq ki, COVID xəstələrinin sayı artmaqdadır, bizə əlavə çarpayılar lazımdır və bu istiqamətdə işlər aparılır.

Bu xəstəxanada bütün lazımi şərait yaradılıbdır. Palatalar, laboratoriya, diaqnostika mərkəzi, həkimlər üçün yaxşı şərait vardır. Ən önəmlisi odur ki, bu xəstəxana 800 çarpayılıqdır. Bu ərazidə təqribən bir ay-ay yarım ərzində yeni xəstəxana inşa ediləcək. O da modul tipli xəstəxana olacaq. Orada çarpayıların sayı 1300-ə qədərdir. Yəni təqribən iki ay ərzində biz 2 mindən çox xəstəni yerləşdirə biləcəyik. Beləliklə, xəstəliklə mübarizədə bizim əlavə imkanlarımız olacaqdır.

**- Cənab Prezident, Sizin də qeyd etdiyiniz kimi, son vaxtlar Azərbaycanda koronavirusla mübarizə ilə əlaqədar modul tipli xəstəxanalar açılır və Siz də növbəti dəfə belə bir tibb ocağının açılışında iştirak etdiniz. Qısa olaraq toxundunuz, amma istərdim, mümkünsə ətraflı məlumat verəsiniz ki, gələcəkdə də əlavə belə tibb ocaqlarının yaradılması, inşası nəzərdə tutulurmu?**

- Bəli, nəzərdə tutulur. Bildiyiniz kimi, modul tipli 5 xəstəxana artıq fəaliyyətdədir. Bu xəstəxanaların tez bir zamanda inşa edilməsi onu göstərir ki, biz hətta seytnot vəziyyətdə lazımi addımları ata bilərik. Bildiyiniz kimi, heç bir ölkə bu pandemiyaya hazır deyildi. Bizim mövcud çarpayıların sayı adi rejimə hesablanmışdı. Ona görə modul tipli xəstəxanaların tikintisi zəruri idi və biz bunu etdik. Bildiyiniz kimi, ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda artıq fəaliyyətdədir və beşinin də tikintisi gedir. Hesab edirdik ki, on xəstəxana bizə kifayət edəcək. Ancaq görürük ki, əlavə xəstəxanalara ehtiyac olacaq. Ona görə mən bu yaxınlarda göstəriş verdim ki, əlavə on modul tipli xəstəxana sifariş olunsun, onların yerləri müəyyən edilsin və biz ən kritik vəziyyətə hazır olmalıyıq. Əslində, modul tipli bu on xəstəxananın tikintisi ilə bağlı qərarı biz o vaxt vermişdik ki, xəstəliyin yayılması o qədər də geniş vüsət almamışdı. Həmin qərar aprel ayında verilmişdi, o vaxt gündə təqribən 30, 40, 50, 60 insan xəstələnirdi. Əlbəttə, qabaqlayıcı tədbirlərin görülməsi zəruri idi. Ancaq biz təxmin edə bilməzdik ki, xəstəlik necə inkişaf edəcək. Lakin ehtimal var idi və dünyada gedən proseslər onu göstərirdi ki, xəstələrin sayı arta bilər. Belə olan halda biz çıxılmaz vəziyyətdə qalar, bu xəstələri harada yerləşdirərdik? Ona görə o vaxt bu qərarın qəbul edilməsi düzgün addım idi. Bu gün yenə də modul tipli əlavə on xəstəxananın tikilməsi barədə qərar gələcəyə hesablanır.

Ümumiyyətlə, hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alırlar. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 36-sı mənim sərəncamımla son müddət ərzində inşa edilibdir. Təsəvvür etmək çətin deyil ki, əgər bu xəstəxanalar tikilməsəydi, indi biz hansı problemlərlə üzləşə bilərdik. Beləliklə, bu gün bizim hələ ki kifayət qədər boş çarpayılarımız var. Ancaq biz hər bir vəziyyətə hazır olmalıyıq.

*Ardı 2-ci səh.*

## Rəcəb Tayyib ƏRDOĞAN: "Bir millət, iki dövlət" şüarı ilə dost və qardaş Azərbaycana əlimizdən gələn hər cür köməyi göstərməyə hazırıq"



**Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə**

Cənab Prezident, Əziz Qardaşım.

Bütün dünyanı çənginə alan COVID-19 pandemiyası səbəbindən Azərbaycanda vəfat edən qardaşlarımıza Uca Allahdan rəhmət, müalicəsi davam edənlərin isə tezliklə şəfa tapmalarını diləyirəm. Həyatını itirənlərə görə qardaş Azərbaycan xalqına millətim adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm.

Azərbaycanda pandemiyaya qarşı gördüyünüz təsirli tədbirləri və fəaliyyəti yaxından izləyirik. Bu sahədə mübarizə aparan hər kəsə işlərində uğurlar arzulayıram.

"Bir millət, iki dövlət" şüarı ilə dost və qardaş Azərbaycana əlimizdən gələn hər cür köməyi göstərməyə hazırıq. Bu çərçivədə Can Azərbaycanın pandemiya ilə mübarizəsinə bir az da olsa fayda verə biləcək tibbi yardım ləvazimatlarının ölkənizə çatdırılmasını təmin edirik.

Bu fürsətdən istifadə edərək pandemiya ilə mübarizədə Azərbaycanın yanında olduğumuzu bir daha ifadə edir, zati-alinizə səmimi-qəlbdən cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına millətim adından və şəxsən öz adımdan əmin-amanlıq və rifah diləklərimi çatdırıram.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

*Ankara şəhəri, 5 iyul 2020-ci il*

## İlham ƏLİYEV: "COVID-19-a qarşı mübarizədə də Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" şüarı əsasında həmrəylik nümayiş etdirirlər"

**Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana**

Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Sizin 2020-ci il 5 iyul tarixli məktubunuza görə təşəkkür edirəm.

Mən də öz növbəmdə qardaş Türkiyədə yeni növ koronavirus xəstəliyi səbəbindən həyatını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, virusa yoluxanlara Allahdan şəfa diləyirəm.

Bəşəriyyətin üzləşdiyi koronavirus pandemiyası ilə mübarizədə Sizin rəhbərliyinizlə hökumətinizin milli və beynəlxalq səviyyədə fəaliyyəti təqdirəlayiqdir.

Bütün sahələrdə olduğu kimi, COVID-19-a qarşı mübarizədə də Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" şüarı əsasında həmrəylik nümayiş etdirir. Əminəm ki, birgə səylərimizlə koronavirus bəlasının öhdəsindən gələcəyik.

Bu xüsusda qardaş Türkiyə Respublikası tərəfindən göndərilən humanitar yardıma görə Sizə öz adımdan və Azərbaycan xalqı adından dərin minnətdarlığımı bildirirəm. Bu, ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin növbəti bariz nümunəsidir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2020-ci il*



## Bütün qərarlar vətəndaşların sağlamlığının qorunmasına yönəlib

Altı aydır insanları qorxuya, təlaşa salan bircə söz var - koronavirus. Ölüm saçan taclı bəla... Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) fevralın 11-də adını COVID-19 qoyduğu, martın 11-də isə pandemiya elan etdiyi infeksiya dünyanın 218 ölkə və bölgəsinə şaxələnib.

Hazırda dünyada koronavirusa ümumi yoluxma sayı 12 milyona çatıb. Dünya dövlətlərinin rəsmi statistikasına əsasən, artıq pandemiya qurbanlarının sayı 540 min nəfərə yüksəlib və ölüm halları hər gün artmaqdadır. Son günlərin rəqəmləri COVID-19-un miqyasının, bu isə, öz növbəsində, infeksiyanın daha çox yayılması təhlükəsinin artdığını göstərir. Elə ona görə də dünya dövlətləri böyük səbirsizliklə virus əleyhinə peyvəndin yaranacağı tarixi gözləməklə yanaşı, pandemiyanın qarşısını müəyyən qədər almaq üçün karantin tədbirlərini sərtləşdirirlər. Çünki hələ də infeksiya ilə mübarizədə əsas effektli üsul sosial izolyasiya və özünütəcrid sayılır.

*Ardı 6-cı səh.*

**◆ Milli maraqlar naminə əməkdaşlıq**

## İlham Əliyev yeni siyasi konfiqurasiyanın uğurlu memarıdır

**DADP sədri Əlisahib HÜSEYNOV: "Prezident əsl islahatçı cəsarəti nümayiş etdirərək ölkənin siyasi səhnəsini yenidən qurur, siyasi vitrini təzələyir, siyasi opponentlərə görüş və barış əlini uzadır"**

Azərbaycanda siyasi sistemdə yeni konfiqurasiyanın formalaşması öz fəaliyyətini sağlam müxalifətçilik prinsipləri əsasında, milli maraqların qorunması yönündə quran bütün partiyalar tərəfindən təqdir olunur.

Prezident İlham Əliyevin həyata keçirdiyi islahatların tərkib hissəsi olan bu proses cəmiyyətimizin həyatında mühüm siyasi yeniliklərlə müşayiət olunur.

Demokratik Azərbaycan Dünyası Partiyasının (DADP) sədri Əlisahib Hüseynovla söhbətimiz də bu barədədir.

### Təşəbbüskar İlham Əliyevdir

Əlisahib Hüseynov bildirdi ki, "yeni siyasi konfiqurasiya" ifadəsi son dövrlərdə ölkə KİV-ində və siyasi camiədə ən çox səsləndirilən, tirajlanan bir ifadəyə çevrilib. Hətta bu ifadə 2020-ci ilin siyasi trendlərindən biridir: "Yeni siyasi konfiqurasiya anlayışının gündəmə gətirilməsinin təşəbbüskarı məhz Prezident İlham Əliyevdir. Çünki hazırkı mərhələdə ölkənin siyasi arxitekturasının yenilənməsi, yenidən qurulması Prezidentin fəaliyyətinin əsas prioritetlərindən birini təşkil edir. Dövlət başçısı siyasi mühitmizi yenidən formalaşdırmaq, iqtidar-müxalifət münasibətlərinə yeni anlam qazandırmaq, siyasi sistemin fəlsəfəsini dəyişmək istəyir. Bunun yolu isə, ilk növbədə, yeni siyasi konfiqurasiyanın formalaşdırılmasından, siyasi islahatların dərinləşdirilməsindən, siyasi dialoqun genişləndirilməsindən keçir.

*Ardı 5-ci səh.*



## Pandemiya dövründə də «Şərq-Qərb nəqliyyat dəhlizi» ilə beynəlxalq yük daşımaları fasiləsiz həyata keçirilir

Nəqliyyat sektoruna yönəldilən irihəcmli investisiyalar Azərbaycana bu sahədə ən müasir infrastruktur yaratmağa imkan verib. Nəticədə ölkəmiz Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilib. Xüsusilə bir neçə il əvvəl Ələt Beynəlxalq Dəniz Ticarət Limanı istifadəyə veriləndən sonra Azərbaycan dünya arenasında özünü etibarlı tranzit ölkəsi kimi təsdiqləyib.

İndiki dövrün ən aktual problemi olan koronavirus bütün dünyada böyük çətinliklər yaradıb. Pandemiya şəraitində ölkələr arasında yüklərin daşınması olduqca vacib əhəmiyyət kəsb edir. COVID-19-dan irəli gələn mənfi təsirlərə baxmayaraq, Azərbaycan tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görüb. Belə ki, "Şərq-Qərb nəqliyyat dəhlizi" ilə beynəlxalq yük daşımaları fasiləsiz həyata keçirilir.

*Ardı 6-cı səh.*

# Azərbaycan beynəlxalq

## Dünyada bizə böyük hörmət və dəstək var

*Əvvəli 1-ci səh.*

Bildirməliyəm ki, bu il istifadəyə verilmiş "Yeni klinika"da hazırda 350 xəstə müalicə alır. Biz qısa müddət ərzində orada çarpayıların sayını 700-750-yə çatdıracağıq. Ona görə hesablamaq çətin deyil ki, əgər buna ehtiyac yaranarsa, biz qısa müddət ərzində 5 mindən çox xəstəni yerləşdirə biləcəyik - yəni xəstəxanalarda 2100, modul tipli 15 xəstəxanada 3 min, "Yeni klinika"da əlavə 350.

**- Cənab Prezident, dünyada, o cümlədən ölkəmizdə koronavirus pandemiyası ilə bağlı vəziyyəti qiymətləndirməyinizi istərdik.**

- Bildiyiniz kimi, dünyada koronavirus xəstəliyi daha geniş vüsət alır. Bizim kimi, bəzi ölkələr yumşalma tədbirlərindən sonra gördülər ki, xəstəliyin yayılma tempi geniş vüsət alıbdır. Ona görə indi dünyada bir çox ölkələr yenidən məhdudlaşdırıcı tədbirlərə qayıdırlar. Hesab edirəm ki, bu, düzgün qərardır. Çünki bu gün bu xəstəliyin tam müalicəsi üçün peyvənd mövcud deyil. Belə olan halda yoluxanların sayı bundan sonra da arta bilər.

Bizə gəldikdə, bəri başdan bütün qabaqlayıcı tədbirlərin görülməsi ilə vəziyyəti nəzarətdə saxlaya bildik və bu gün də vəziyyət nəzarət altındadır. Baxmayaraq ki, hazırda gündə təqribən 500 yeni xəstə qeydə alınır, yəni yoluxmanın tempi yüksəkdir, ancaq vəziyyət nəzarət altındadır. Əlbəttə, biz pandemiyanın ilk günlərindən çox önəmli addımlar atdıq. Fevral ayında bizim cəmi altı laboratoriyamız var idi. Hazırda bu laboratoriyaların sayı 29-a çatıb və 15 yeni laboratoriya sifariş edilib, yoldadır, gələcək və laboratoriyaların sayı 44-ə çatacaqdır. Bu, bizə imkan verəcək ki, daha çox test aparaq. Onu da bildirməliyəm ki, bu günə qədər 500 mindən çox test aparılıb və adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada təqribən 40-cı yerdədir.

Xəstəxanaların buna hazır olması məsələləri də öz həllini tapıb. Deyə bilərəm ki, bu 45 xəstəxananın əksəriyyəti bölgələrdə yerləşir. Bu xəstəxanalar regional inkişaf proqramı çərçivəsində tikilib və bu gün ən yüksək standartlara cavab verir.

Əlbəttə ki, biz məhdudlaşdırıcı tədbirlərin görülməsi ilə bağlı addımlarımızı vəziyyətə uyğun şəkildə atırıq. May ayının əvvəlində biz birinci yumşalma addımları atanda mən demişdim ki, xəstəliyin yayılma sürətinin artdığını görsək, yenidən sərtləşdirilmiş məhdudlaşdırıcı tədbirlərə qayıtmalı olacağıq, belə də oldu. Bu gün karantin rejiminin qüvvədə qalması hesab edirəm ki, düzgün addımdır. Bildirməliyəm ki, bir çox ölkələr yenə də karantin rejiminin daha da sərt formasına qayıdırlar.

Əlbəttə, hər bir məsələ müqayisə tələb edir və deyə bilərəm ki, bizimlə əhalisi eyni olan bəzi inkişaf etmiş ölkələrdə yoluxanların sayı 60-70 mindir, ölənlərin sayı 10 mindir. O ölkələrin səhiyyə sistemi bir çox hallarda nümunə kimi göstərilirdi. Bu onu göstərir ki, heç bir ölkə tam şəkildə özünü sığortalanmış hesab edə bilməz və bu xəstəlik sərhəd tanımır. Ona görə beynəlxalq əməkdaşlığa daha böyük ehtiyac var və Azərbaycan bu istiqamətdə lazımi addımları atır.

Bu xəstəlik bir şeyi də göstərib - adətən, hesab olunurdu ki, belə dəhşətli pandemiyalar, epidemiyalar, insanların yoluxucu xəstəliklərdən kütləvi şəkildə həlak olması ancaq geridə qalmış ölkələrdə mümkündür. Amma həyat onu göstərdi ki, bu belə deyil. Həyat onu göstərdi ki, bu gün pandemiyadan ən çox əziyyət çəkən ölkələr inkişaf etmiş ölkələrdir. Əgər onlar bu məsələyə tam çarə tapa bilmirlərsə, əlbəttə ki, o qədər də inkişaf etməmiş, yaxud da geridə qalmış ölkələrdə vəziyyəti təsəvvür etmək çətin deyil.

Biz, əlbəttə, bütün addımları atanda vəziyyəti dərindən təhlil edirik. Məhdudlaşdırıcı tədbirlər tətbiq olunanda, əlbəttə ki, mütəxəssislərlə, həkimlərlə məsləhətləşmələr aparılır. Yəni biz bu işi kortəbii aparmırıq, ölçülüb-biçilmiş addımlar atırıq. Bu addımların əsas məqsədi insanlarımızı, onların sağlamlığını, həyatını bu xəstəlikdən qorumaqdır. Pandemiya dövründə bütün imkanlarımız səfərbər olunmalıdır ki, biz bu vəziyyətdən az itkilərlə çıxa bilək.

**- Cənab Prezident, karantin rejiminə toxundunuz. Bu cür karantin rejiminin nə qədər davam edəcəyini proqnozlaşdırmaq olar? Yəni hansısa bir səviyyə varmı özümüz üçün onu əsas tutaraq deyə bilək ki, karantin rejimi filan vaxt yekunlaşa bilər?**

- Bilirsiniz ki, biz pandemiya dövründə, adətən, karantin rejimini bir, ya iki həftə ərzində elan edirdik. Vəziyyəti təhlil edərkən, nəzarət mexanizmlərini gücləndirərkən baxırdıq ki, bu sərtləşdirilmiş tədbirlər nəyə gətirib çıxarır. Deyə bilərəm ki, bir müddət bundan əvvəl yoluxanların sürətlə artan sayı indi sabitləşib. Son bir neçə gün ərzində, dediyim kimi, artıq 500 ətrafında yeni yoluxan insan var. Ancaq biz hələ müsbət dinamikaya çıxmamışıq. Bu günə qədər xəstələnənlərin sayı sağalanların sayından çoxdur və bu mənfi dinamika, qeyd etdiyim kimi, bizim səhiyyə sistemimizə də əlavə yükdür. Ona görə indiki rejim nə qədər davam edəcək və bu rejim daha da sərtləşəcək, yoxsa yumşalacaq, yaxın gələcəkdə biz bunu görəcəyik. Yenə də demək istəyirəm ki, ilk gündən bu günə qədər burada dövlət tərəfindən bütün lazımi addımlar atılıbdır. Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar. Dünən məşhur bir hoteldə baş verən o biabırçı hadisə dözülməzdir. Ona görə, əlbəttə, Azərbaycan polisi düz edərək müdaxilə edib. Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq. Eyni zamanda mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Ona görə biz bundan sonra da bu istiqamətdə addımlarımızı atacağıq. Əgər o qaydaları pozan insanlar daha məsuliyyətli olarlarsa və nizam-intizama riayət edərlərsə, hesab edirəm ki, biz pandemiyanı nəzarətdə saxlaya biləcəyik.

**- Cənab Prezident, pandemiya başladığı gündən bəri Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir. Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunəvi ölkə adlandırıb. İstərdim ki, bu təşkilatla əlaqələrimizi və əməkdaşlığımızı qiymətləndirəsiniz.**

- Biz ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə təmasda idik. Çünki bu təşkilat dünya miqyasında bu işlərə cavabdehlik daşıyan birinci təşkilatdır. Onların mütəxəssislərini dəvət etdik. Onlar da ezam olundu, gəldilər, bəzi məsləhətlər verdilər və o məsləhətlər əsasında öz addımlarımızın bir hissəsini atdıq. Dediyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda görülmüş işlərə yüksək qiymət vermişdir, həm birinci mərhələdə, ondan sonrakı mərhələdə və bu gün. Bu gün də biz sıx əlaqədəyik və hesab edirəm ki, bu təşkilatla hər bir ölkə çox sıx əməkdaşlıq etməlidir. Çünki biz yalnız Ümumdünya Səhiyyə Təşkilatından məsləhət ala bilərik. Ona görə biz bu təşkilatı beynəlxalq arenada da dəstəkləyirik, bildiyiniz kimi, ona maliyyə yardımı da etmişik. Bu gün təşkilatın nümayəndəliyi Azərbaycanda çox fəal iş aparır və bu xəstəliyin yayılmaması üçün əməli addımlar atır. Biz bu fəaliyyətə görə minnətdarıq. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Azərbaycan tərəfindən təşkil olunmuş zirvə görüşlərində də iştirak edib. Hesab edirəm ki, pandemiyadan sonra da biz bu təşkilatla əməkdaşlığımızı uğurla davam etdirəcəyik.

**- Cənab Prezident, koronavirus pandemiyasının ölkəmizin sosial-iqtisadi sahələrinə təsiri necədir? Bu barədə fikirlərinizi öyrənmək istərdik.**

- Əlbəttə, bu pandemiya təsirsiz ötüşmədi. Dünyanın aparıcı maliyyə qurumları indi ortaya müxtəlif proqnozlar qoyurlar - dünya iqtisadiyyatı nə qədər tənəzzülə uğrayacaq, avrozonada vəziyyət necə olacaq, işsizliklə bağlı vəziyyət necə olacaq? Biz görürük ki, işsizlik az olan ölkələrdə işsizlik kəskin artır. Dünya iqtisadiyyatına böyük zərbə vuruldu və Azərbaycan da dünya iqtisadiyyatının bir parçası olduğu üçün təbii ki, bu, bizim vəziyyətimizə də mənfi təsir göstərmişdir.

Biz bu ili çox böyük ümidlərlə, böyük planlarla başlamışdıq. İlin ilk aylarında iqtisadi göstəricilərimiz kifayət qədər yüksək idi. Biz hesab edirdik ki, 2020-ci il son vaxtlar apardığımız islahatların nəticəsində gözəl nəticələri verə biləcək il olacaqdır. Ancaq, əlbəttə ki, pandemiya bizim bütün planlarımıza da müdaxilə etdi və biz şüurlu şəkildə çox sərt məhdudlaşdırıcı addımlar atdıq, o cümlədən ticarət sahəsində, digər sahələrdə. Təxmin edirdik ki, iqtisadiyyatımız tənəzzülə uğrayacaq. Azərbaycan iqtisadiyyatı beş ayın yekunlarına görə 1,7 faiz tənəzzülə uğradı. Altı ayın yekunları yəqin ki, bir neçə gündən sonra məlum olacaq. Amma bilirsiniz, bu, bərpa ediləcək. Ona görə mən bir daha demək istəyirəm ki, seçim qarşısında olanda bizim seçimimiz birmənalı, tərəddüdsüz idi, insanların sağlamlığı ön plandadır, iqtisadiyyat ikinci plandadır. Amma buna baxmayaraq, biz heç bir sosial layihəni təxirə salmadıq, ixtisar etmədik. Əksinə, bu il büdcə xətti ilə reallaşan sosial layihələr keçən ilə nisbətdə daha təsirlidir. Misal üçün, ən həssas təbəqəyə aid olan layihələr bu il daha böyük həcmdə icra edilir. Məsələn, bu il məcburi köçkünlər üçün rekord sayda binalar tikiləcək, 7 mindən çox köçkün ailəsi yeni mənzillərlə təmin ediləcəkdir. Şəhid ailələri üçün bu il rekord sayda - 1500 mənzil istifadəyə veriləcək, adətən, ildə təqribən 700-800 mənzil təqdim edilir. İyirmi il orduda qüsursuz xidmət etmiş hərbçilərə bu il 400-dən çox mənzilin verilməsi nəzərdə tutulur. Biz ünvanlı sosial yardım alanların sayını artırdıq. Bu rəqəm təqribən 85 minə yaxınlaşır - 85 min ailə, yəni 300 mindən çox insan. Digər önəmli sosial layihələr icra edildi. Bildiyiniz kimi, işsizləri, o cümlədən qeyri-formal sahədə işləyənləri dəstəkləmək, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan insanlara maddi yardım göstərmək və digər məqsədlər üçün təqribən 3 milyard manat vəsait nəzərdə tutulur və o vəsaitin bir hissəsi artıq xərclənib.

Ona görə biz nə qədər vəsait lazımdırsa, o qədər də ayıracağıq. Digər tərəfdən, baxmayaraq ki, iqtisadiyyatımız tənəzzülə uğrayıb, amma bəzi sahələrdə inkişaf da var. Misal üçün, kənd təsərrüfatı. Biz beş ayın yekunlarına görə bu sahədə 3 faizdən çox artım gördük. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar və şəffaflıq bu gün çox yaxşı nəticələrə gətirib çıxarır. Qeyri-neft sənayesi sahəsində artım beş ay ərzində 16 faiz olub. Bu da son illər ərzində sənayeləşmə prosesinin təzahürüdür. Ona görə mən hesab edirəm ki, biz, bütövlükdə, bu ili də lazımi səviyyədə başa vuracağıq. Dünya bazarlarında neftin qiymətinin kəskin düşməsinə baxmayaraq, altı ay ərzində bizim valyuta ehtiyatlarımız cəmi 98 milyon dollar azalıbdır. Biz daha da böyük düşmə, tənəzzül gözləyirdik. Əgər bizim büdcəmizdə neftin qiyməti 55 dollar hesablanıbsa, altı ay ərzində neftin orta qiyməti 38 dollar olub. Yəni bu, bizim üçün böyük itkidir. Bəzi günlərdə daha aşağı düşürdü. Hətta bildiyiniz kimi, özünü müxalifət adlandıran bəzi nümayəndələr bir-birini təbrik edirdilər, toy-bayram edirdilər ki, neftin qiyməti 14 dollara düşüb və beləliklə, ölkə böyük problemlərlə üzləşəcək. Bilirsiniz, Azərbaycan xalqı bu iyrənc mənzərəni görərkən bir daha əmin olur ki, kim kimdir. Çünki neftin qiymətinin düşməsi, ilk növbədə, insanların sosial məsələlərinin həllində özünü göstərəcək. Əgər neftin qiyməti uzun müddət aşağı səviyyədə olarsa, biz istər-istəməz investisiya xərclərimizi azaltmalı olacağıq. Belə olan halda işsizlik artacaq. Biz məcbur olub sosial xərcləri ixtisar edəcəyik və insanlar bundan əziyyət çəkəcəklər. Hesab edirəm ki, bu gün neftin qiymətinin düşməsinə sevinən bir Ermənistandır, bir də özünü müxalifət adlandıran antimilli şura. Çünki hər ikisi Azərbaycan dövlətçiliyinə düşmənçilik hissləri ilə yaşayır. Bunu Azərbaycan xalqı bilməlidir. Amma mən demişəm, neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq. Çünki biz son illər ərzində o qədər böyük iqtisadi-maliyyə potensialı yaratmışıq ki, istənilən böhranla bacara biləcəyik.

İqtisadi sahədə bir məsələyə də toxunmaq istəyirəm. Bildiyiniz kimi, hazırda kölgə iqtisadiyyatına qarşı çox ciddi mübarizə aparılır və bu mübarizə özünü göstərir. Həm biznes cəmiyyəti bunu görür və qiymətləndirir, eyni zamanda biznes qurumlarında fəaliyyət göstərən vətəndaşlar. Bu il yüz mindən çox əmək müqaviləsi imzalandı. Əslində, bu, qeyri-formal məşğulluğun ağardılması deməkdir. Çünki bu günədək yüz minə qədər insan kölgə iqtisadiyyatında fəaliyyət göstərirdi, öz əməkhaqqı barədə məlumat vermirdi. Beləliklə, özünü gələcək pensiya təminatından, gələcək tibbi sığortadan məhrum edirdi. Odur ki, həm maarifləndirmə işləri, həm də çox ciddi inzibati addımlar və dövlət qurumları ilə biznes qurumları arasındakı təmaslar, onlar üçün güzəştli vaxtın uzadılması ona gətirib çıxardı ki, yüz mindən çox əmək müqaviləsi imzalandı və bu, son hədəf deyil. Bizdə qeyri-formal sahədə bəlkə də hələ yüz minlərlə insan işləyir və əminəm ki, onlar da tədricən kölgə iqtisadiyyatından ağ iqtisadiyyata keçəcəklər. Bu islahatlar eyni zamanda büdcə gəlirlərində də özünü göstərdi. Baxın, ticarət və ictimai iaşə obyektlərinin böyük əksəriyyəti bu müddət ərzində bağlı idi. Turizm sıfır səviyyəsindədir. Halbuki biz hesab edirdik ki, bu il ölkəyə təqribən 3,5 milyon turist gələcək. Çünki keçən il 3 milyon rekord hədd idi. Bu il üçün belə planlaşdırırdıq. Bu da ölkə iqtisadiyyatına minimum 2 milyard dollar valyutanın gəlməsi demək idi. Biz bundan da məhrum olduq. Ancaq altı ay ərzində vergi və gömrük orqanları büdcəyə proqnozdan əlavə 423 milyon manat cəlb edə biliblər. Bunun 98 milyon manatını gömrük, qalan böyük hissəsini vergi orqanları təmin edib. Nəyin hesabına? Məhz şəffaflığın, dürüstlüyün hesabına, kölgə iqtisadiyyatının daralmasının hesabına. Yəni biz bu islahatları ən böhranlı məqamda da aparırıq və gözəl nəticələr əldə edirik. Əlbəttə ki, mən demişəm, bu vəsaitin hamısı ancaq sosial layihələrə, o cümlədən COVID-ə qarşı mübarizəyə xərclənəcəkdir.

**- Cənab Prezident, Azərbaycan pandemiya ilə mübarizədə bir çox ölkələrə humanitar yardım göstərib. Bununla bağlı fikirlərinizi bölüşməyinizi xahiş edirik.**

- Bəli, tamamilə haqlısınız. Biz bu günə qədər 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərmişik. Onu deyə bilərəm ki, biz bu haqda heç məlumat da vermirdik. Çünki biz bunu piar üçün yox, sadəcə olaraq, ölkələrə həmrəylik borcu kimi edirdik. Ancaq bir neçə dövlət başçısı mənə təşəkkür məktubu ünvanladıqdan sonra bu, artıq bilindi və biz də əlbəttə ki, bunu gizlətmirik. Əksinə, hesab edirəm ki, bu, bizim böyük üstünlüyümüzdür. Çünki hətta çətin bir dövrdə biz 30-dan çox ölkəyə yardım göstərmişik və düz etmişik. Əlbəttə, məhz çətin günlərdə ölkələr bir-birinə dəstək verməlidirlər. Yaxşı günlərdə hər kəs yaxşı sözlər deyə bilər, yaxşı bəyanatlar verə bilər. Ancaq biz bu həmrəyliyi sözdə yox, əməldə göstərməliyik və bunu göstərmişik. Hesab edirəm ki, buna görə ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmlənib. Onsuz da Azərbaycan dünyada çox yüksək imicə malik bir ölkədir. Son hadisələr bunu bir daha təsdiqlədi. Bu humanitar və maliyyə yardımı bir daha onu göstərir ki, ilk növbədə, Azərbaycan ayaqda möhkəm duran ölkədir və çətin dövrdə özünə qapanmır. Əksinə, bu dövr ərzində bizim təşəbbüslərimiz, o cümlədən beynəlxalq müstəvidə təşəbbüslərimiz beynəlxalq əməkdaşlığı təşviq edən təşəbbüslərdir. Burada Azərbaycan dünya miqyasında çox önəmli rol oynayan ölkə kimi özünü bir daha təsdiqləyib.

İkincisi, bizim fəlsəfəmiz belədir. Mən əminəm ki, əgər kimsə yardım üçün müraciət edirsə, imkan daxilində o xahişlər təmin olunmalıdır. Çünki biz ancaq əməkdaşlıq, xeyirxahlıq, yardım və dəstək hesabına daha çox dost qazana bilərik. Biz bunu ardıcıllıqla, düşünülmüş siyasətlə etmişik. Biz heç vaxt hansısa bir ölkənin çətin vəziyyətindən istifadə edib özümüz üçün nəyisə qoparmağa çalışmamışıq. Həmişə kömək etməyə çalışmışıq. İndi kim bunun qədrini bilir, sağ olsun, kim bunu unudur, özü bilər. Hər halda bizim vicdanımız təmizdir. Bu dövrdə biz, əlbəttə, bundan sonra da yardımları göstərə bilərik və edəcəyik. O cümlədən biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar ianə verdik. Birinci ianə sırf onların öz planlarını həyata keçirməsi üçün idi. İkinci ianə isə pandemiyadan ən çox əziyyət çəkən və ən ağır vəziyyətdə olan Qoşulmama Hərəkatına üzv ölkələrə nəzərdə tutulur. Biz digər beynəlxalq təşkilatlara maliyyə yardımı göstərmişik. Yenə də deyirəm, hesab edirəm ki, tamamilə düzgün addım atmışıq.

**- Cənab Prezident, belə bir dövrdə şəxsən Siz beynəlxalq arenada bir sıra təşəbbüslər irəli sürmüsünüz. Biz buna misal olaraq Türk Şurasının və Qoşulmama Hərəkatının Zirvə toplantılarını göstərə bilərik. Necə düşünürsünüz, bu təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi kimi dəyərləndirmək olarmı?**

- Təbii ki. Bilirsiniz, mən hesab edirəm ki, hər bir ölkə, - hər halda biz Azərbaycanın mövqeyini bunda görürük, - hər hansı bir təşkilatda fəaliyyəti tam icra etməlidir. Yəni bu fəaliyyət, xüsusilə sədrlik fəaliyyəti formal xarakter daşımamalıdır, halbuki daşıya da bilər. Çünki Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik növbəlilik prinsipi əsasındadır. Qoşulmama Hərəkatında sədrlik isə seçkilər yolu ilədir. Biz hər iki təşkilata sədrliyi təxminən eyni vaxtda - keçən ilin oktyabrında öz üzərimizə götürmüşük. Bakıda iki Zirvə görüşü keçirilmişdir. O vaxt mən bəyan etdim ki, biz sədr kimi fəal olacağıq, Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını dünya miqyasında müdafiə edəcəyik, ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik. Ona görə bu ağır bir dövrdə, əlbəttə, hesab etdim ki, zirvə görüşlərinin keçirilməsinə də böyük ehtiyac var. Bildirməliyəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü yeni formatda - onlayn formatda ilk Zirvə görüşü idi. Ondan sonra digər təşkilatlar da buna oxşar addımlar atdılar. Qoşulmama Hərəkatına üzv ölkələrin və Türk Şurasının zirvə görüşləri çox uğurlu keçdi. Qəbul edilmiş sənədlərdə Azərbaycanın bu təşəbbüsü və bu sahədə oynadığı rolu, həmrəyliyə hesablanmış addımları yüksək qiymət almışdır.

Bundan başqa, mən Avropa İttifaqının Şərq Tərəfdaşlığı Zirvə görüşündə iştirak etmişəm və Azərbaycanın mövqeyini ifadə etmişəm. Eyni zamanda bu yaxınlarda Azərbaycan, Əfqanıstan, Türkmənistan dövlət başçılarının Zirvə görüşü keçirildi və bu görüş də çox önəmli idi. Biz konkret nəticələrə gəldik. Bu Zirvə görüşü daha çox logistika, nəqliyyat sektoruna aid idi. Ancaq mənim təşəbbüsümlə biz onun formatını bir qədər genişləndirdik. Yenə də təşəbbüs göstərərək hökumətlərarası işçi qruplarının yaradılmasına nail olduq. İndi məsləhətləşmələr gedir. İnvestisiyalar, ticarət, nəqliyyat-logistika, energetika, telekommunikasiya. Burada çox önəmli üçtərəfli format artıq formalaşıb. Deyə bilərəm ki, üçtərəfli əməkdaşlıq formatına biz həmişə çox böyük maraqla yanaşmışıq, üstünlük vermişik. Bir neçə ölkə ilə belə formatlar var. Bu isə üçtərəfli və çox böyük iqtisadi səmərə gətirə biləcək yeni bir formatdır. Əlbəttə ki, bizim növbəti təşəbbüsümüz BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə əlaqədar idi. Bu təşəbbüs də dünya miqyasında yüksək qiymət aldı və 130-dan çox ölkə bizim təşəbbüsümüzə dəstək verdi. Beləliklə, yaxın gələcəkdə sessiya keçiriləcəkdir.

**- Cənab Prezident, Sizin BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünüzün əleyhinə səs verən yeganə ölkə Ermənistan idi. Bunu nə ilə əlaqələndirirsiniz? Bu, Ermənistanın bizə qarşı olan nifrətidir, yoxsa özünü dünyadan təcrid etməsidir?**

- Yəqin ki, hər ikisidir. Hesab edirəm ki, bunun əsas səbəbi Ermənistanda hökm sürən və dövlət tərəfindən təbliğ edilən Azərbaycanafobiyadır, Azərbaycan dövlətinə, Azərbaycan xalqına nifrətin təzahürüdür. Ancaq Ermənistan özü-özünü çox pis vəziyyətə qoydu. Siz qeyd etdiyiniz kimi, özünü dünyadan təcrid etdi. Çünki bu təşəbbüsün əleyhinə çıxmaq ağılsızlıqdır və qeyri-rasional düşüncənin məhsuludur. Çünki biz bu təşəbbüsü irəli sürəndə bir məqsədi güdürdük ki, artıq dünya miqyasında səylərimizi birləşdirək. Bu təşəbbüslə əlaqədar bizim konkret təkliflərimiz də olacaqdır. Çünki türk dünyasında biz bunu keçirdik, 120 ölkəni əhatə edən Qoşulmama Hərəkatı çərçivəsində keçirdik. İndi biz dünya miqyasında bunu keçirmək istəyirik ki, burada vahid bir yanaşma tətbiq olunsun, ölkələr özlərinə qapanmasın, inkişaf etmiş ölkələr ağır vəziyyətdə olan ölkələrə kömək göstərsinlər. Biz bunu görmürük. İndi biz görürük kim kimə kömək göstərir. Peyvənd icad olunandan sonra bu peyvəndi pulla ala bilməyən ölkələrə bu, pulsuz verilsin. Burada donor təşkilatlar, iri biznes qurumları öz sözünü desin. Yəni biz bu təklifləri buna görə, həm də həmrəyliyi nümayiş etdirmək üçün veririk.





*Ardı 3-cü səh.*

# siyasətin zirvəsindədir

## Dünyada bizə böyük hörmət və dəstək var

*Əvvəli 2-ci səh.*

Hələ bilinmir ki, peyvənd icad olunandan sonra nələr baş verəcək? İndi dərmanlar, cihazlar uğrunda mübarizə gedir. Biz özümüz bu vəziyyətlə üzləşmişdik. Biz sifariş edilmiş və pulla alınmış bəzi cihazları ölkəmizə gətirə bilməmişik. Çünki imkan vermədilər. Ona görə peyvənd icad ediləndən sonra hansı vəziyyət olacaq? Bunu heç kim bilmir. Birincisi, bu peyvənd nə dərəcədə səmərəli olacaq? İndi testdən keçir. Sonra kasıb ölkələrin ona əli çatacaq, yoxsa yox? O, pullamı satılacaq, yaxud da ki, Ümumdünya Səhiyyə Təşkilatı onu paylayacaq? Yoxsa ki, zəngin ölkələr bundan istifadə edib öz əhalisinin canını qurtaracaq, amma kasıb ölkələrdəki insanlar öləcək? Bu, dözülməzdir. Bütün bu məsələlər vahid bir yanaşma tələb edir. Hətta ölkələr BMT Baş Assambleyasında vahid bir fikrə gəlməsələr belə, biz bu məsələni qaldırmalıyıq. Biz dünya birliyinin məsuliyyətli ölkəsi kimi bu məsələni qaldırırıq. Ona görə Ermənistanın bu addımı qətiyyən başadüşülən deyil.

Bildiyiniz kimi, bu təşəbbüsün reallaşması üçün bizə 97 səs lazım idi. Biz isə 130-dan çox ölkənin səsini qazandıq. Hesab edirəm ki, burada iki əsas amil öz rolunu göstərdi - bu mövzunun aktuallığı və beynəlxalq müstəvidə Azərbaycana olan dəstək və rəğbət. Biz bu rəğbəti uzun illər ardıcıl fəaliyyət hesabına, prinsipial, müstəqil siyasətimiz sayəsində qazanmışıq.

Mən dəfələrlə demişəm ki, biz müstəqil siyasət aparırıq və bizim siyasətimizə heç bir kənar qüvvə təsir edə bilməz. Müxtəlif məqamlarda bunu dəfələrlə nümayiş etdirmişik. Ona görə bu gün Azərbaycana olan rəğbət doğrudan da ən yüksək səviyyədədir. Biz doqquz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bildirməliyəm ki, o vaxt bizdən əvvəl Ermənistan namizədliyini vermişdi. Ancaq görəndə ki, biz namizədliyimizi verdik, bizim qarşımızda aciz olduqlarını başa düşdülər və namizədliklərini sakitcə geri götürdülər - yəni o diplomatik döyüş arenasından qaçdılar. Ondan beş il sonra döyüş meydanından qaçdılar və beləliklə, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etdi. Ona görə bu, 10 ildən sonra yenidən bizə verilən böyük beynəlxalq dəstəkdir. Mən öz ölkəmizi heç kimlə müqayisə etmək istəmirəm. Amma hesab etmirəm ki, bir çox ölkələr BMT-də bu qədər dəstək qazana bilər. Bu, yenə də bizim dürüstlüyümüzün, sözümüzə əməl etməyimizin nəticəsidir. Mən dəfələrlə demişəm, bizim sözümüz imzamız qədər təsirlidir və bunun təsiri eynidir. Biz sözümüzü tutan ölkəyik.

O ki qaldı, Ermənistana, əslində, onlar özlərini çox gülünc vəziyyətə qoydular. Bizim təşəbbüsümüzü 130-dan çox ölkə rəsmən dəstəklədi, özü də fərdi qaydada. Baxmayaraq ki, Qoşulmama Hərəkatı bütövlükdə buna dəstək vermişdi, yenə də bütün ölkələr fərdi qaydada ya bizə, ya da ki, BMT-yə məktublarla bu haqda məlumat verdilər. Bir neçə ölkə səssiz qaldı. Yəni, onlar, sadəcə olaraq, buna reaksiya vermədilər. Yeganə ölkə - Ermənistan bunun əleyhinə çıxıb. Ermənistanın BMT-dəki səfiri çox qəribə bir məktub ünvanlamışdır ki, onlar bunun əleyhinədirlər.

Birincisi, Ermənistanın özü regionda və bəlkə də dünyada pandemiyadan ən çox zərər çəkmiş ölkələrdən biridir. İndi özləri etiraf edirlər ki, bu pandemiya ilə bacarmırlar. İndi özləri döymədikləri qapı qalmayıb ki, onlara yardım etsinlər. Yenə də diləndilənə, yalvara-yalvara, oradan-buradan hansısa yardım hesabına yaşamağa çalışırlar. Belə olan halda onlar özləri maraqlı olmalıdır. İkincisi, bu, bir daha onların ksenofob, irqçi və faşist mahiyyətini göstərir. Çünki artıq dünya bunların əsl simasını dəfələrlə görübdür. Bu gün Ermənistanda faşizm ideologiyası üstünlük təşkil edir. Mən demişəm, rejim dəyişə bilər, amma bu ölkənin faşist ideologiyası dəyişməz olaraq qalır. Bu ideologiyanın hədəfində bizik. Onların Azərbaycanafob siyasəti bu gün də özünü büruzə verdi. Onlar özləri-özlərini dünyadan təcrid edirlər. Amma bu addım, əlbəttə ki, heç bir məsələyə təsir edə bilməz. Sadəcə olaraq, dünya ictimaiyyəti bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə öz diqqətini artıracaq, görəcək ki, məhz buna görə bu addım atıldı, buna görə Ermənistan etiraz etdi və yenidən təcrid edilmiş vəziyyətdə qaldı.





**- Cənab Prezident, Siz Ermənistanın beynəlxalq təşkilatlarda addımlarından danışdınız. Ancaq bu ölkənin daxilində də demokratiyanın, insan haqlarının pozulması halları geniş vüsət alır. Avropa təşkilatları isə bütün bunlara göz yumur. Sizcə, bu, nə ilə əlaqədardır?**

- Hesab edirəm ki, bunun əsas səbəbi erməni lobbisi və onun maliyyə vəsaitidir. Erməni lobbisi Ermənistanı bütün təşkilatlarda müdafiə edir. Mən bunu şəxsən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı kimi görmüşəm. Yəni Ermənistan tamamilə tənqiddən kənarda idi. O vaxt ermənipərəst deputatlar və əslən Avropa ölkələrindən olan varlı ermənilər bütün imkanlardan, öz maliyyə imkanlarından istifadə edib Ermənistanı bütün tənqidlərdən qoruyurdular. Ermənistanda insan haqlarının və demokratiyanın pozulması bu günün işi deyil. Ermənistanda heç vaxt demokratiya olmayıb. Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsizeşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar. Ancaq ermənilərə himayədarlıq edənlər, ilk növbədə, erməni lobbisi, onun pulları, ondan sonra Ermənistan hökumətinin Avropada çirkin lobbiçilik fəaliyyəti onları həmişə bu tənqiddən qoruyurdu. Əslində, bu, lobbiçilik fəaliyyəti deyil, bu, korrupsiya fəaliyyətidir. Mən hesab edirəm ki, bu fəaliyyət Avropada geniş araşdırılmalıdır. Bizdə kifayət qədər siqnallar var ki, bəzi siyasi xadimlər, deputatlar, bəzi Avropa ölkələrinin hökumət üzvləri Ermənistana xüsusi münasibət bəsləyirlər. Elə adamlar var ki, Dağlıq Qarabağa yüzlərlə səfər edib. Bunun arxasında nələr dayanır, hamımız yaxşı başa düşürük. Ona görə Avropanın hüquq-mühafizə orqanları bu məsələni, Ermənistan hökumətinin Avropada korrupsiyanın yayılmasına verdiyi dırnaqarası töhfəni, əlbəttə ki, Ermənistanın riyakar siyasətini araşdırsınlar. Çünki o, hər bir güc mərkəzinə o güc mərkəzinin eşitmək istədiyini deyir yalandan. O, bir neçə stulda oturmaq istəyir. Bu günə qədər buna müvəffəq olub. O, saxta tarixi, uydurulmuş, yüz il bundan əvvəl dırnaqarası hadisələri - soyqırımı istismar etmək istəyir. Özündən qurban, yazıq bir xalq düzəltmək istəyir. Halbuki hər kəs yaxşı bilir ki, ermənilər bizə qarşı soyqırımı törətmişlər. Budur əsas amillər.

Ancaq Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilibdir. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik. Faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən faşistdir. Bunu biz deyirik və artıq dünya miqyasında bu fakt haqqında kifayət qədər məlumat var. Mən bu məsələni qaldırmayana qədər heç kim bu haqda danışmırdı. Mən bu məsələni qaldırdım və buna geniş beynəlxalq dəstək təmin edildi. İndi artıq hər kəs bilir ki, Njde faşist olubdur. Bu faşist onların qəhrəmanlıq simvoludur. Onların işğalçılıq siyasəti ifşa edilib. Artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var. Bir də ki, indiki Ermənistan rəhbərliyi əvvəlki hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır. Artıq onların dediyi kimi, Ermənistana 1998-ci ildən 2018-ci ilə qədər quldurlar rəhbərlik ediblər. Onlar özləri bu cinayətkarları, rüşvətxorları ifşa ediblər.



Mən demişəm ki, əgər 20 il ərzində bir ölkəyə rüşvətxorlar, cinayətkarlar, oğrular rəhbərlik edibsə, bu ölkə cinayətkarlar, oğrular, rüşvətxorlar ölkəsidir. Başqa cür ola bilməz. Onların dırnaqarası müstəqillik tarixi rüsvayçılıq tarixidir. Müstəqilliyin ilk illərində Azərbaycan xalqına qarşı törədilmiş ərazi iddiası, Xocalı soyqırımı, işğal və Azərbaycan vətəndaşlarının öz doğma torpaqlarından didərgin salınması, ondan sonrakı mərhələdə qanunsuz yollarla hakimiyyətin zəbt edilməsi. Bütün Ermənistan rəhbərləri hakimiyyətə qanunsuz yollarla gəliblər. Bu ölkənin, sadəcə olaraq, tarixinə baxmaq kifayətdir. 1990-cı illərin sonlarında Ermənistan parlamentində terror hadisəsi onların əsl mahiyyətini üzə çıxarır. Bu, terrorçu ölkədir və 2018-ci ilə qədər quldur, kriminal, rüşvətxor xuntanın hakimiyyəti Ermənistanı bu acınacaqlı vəziyyətə gətirib çıxardı. Belə çıxır ki, Ermənistan prezidentləri rüşvətxor olublar və ikisi də indi cinayət məsuliyyətinə cəlb edilib. Onların generalları oğru olublar, əsgərlərin "tuşonkası"nı bazarlarda satdırıblar. Onların qəhrəmanları faşist, terrorçu və cinayətkar olublar. Bax, budur, bugünkü Ermənistan. İndi baxın görün son iki il ərzində nələr baş verir. Belə olan halda mənzərə tam üzə çıxacaq. Son iki il ərzində Ermənistanda diktatura rejimi formalaşıb. Xunta getdi, diktatura gəldi. Ermənistanda insan haqları kobudcasına pozulur, jurnalistlər həbs olunur. Bir jurnalist həbsxanada aclıq elan etmiş və aclıqdan vəfat etmişdir. Ermənistanda konstitusiya kobudcasına pozulur və konstitusiyaya qanunsuz dəyişikliklər edilir. Halbuki bu dəyişikliklər ancaq referendumla edilə bilərdi. Siyasi opponentlər təqib edilir, siyasi partiya rəhbərlərinin deputat toxunulmazlığı götürülür, onlar hədələnir, onların qohumlarına qarşı cinayət işləri açılır, hakimiyyət zəbt edilib, hakimiyyət bölgüsü tamamilə mövcud deyil. Baş nazir həm hakimdir, həm prokurordur, həm icra orqanının rəhbəridir, həm də sanki parlamentin sədridir. Qanunvericilik, məhkəmə-hüquq və idarəetmə mexanizmi bir adamın əlində cəmlənib və Ermənistanda diktatura artıq formalaşıbdır.

Ancaq baxın, beynəlxalq təşkilatlar, - indi bunu bir çox adamlar deyir, - buna nə reaksiya verir? Heç bir reaksiya vermir. Haradadır ATƏT-in media üzrə nümayəndəsi? Hansı ki, gecə-gündüz Azərbaycan haqqında iftiralar uydurur və indi dəridən-qabıqdan çıxır ki, öz vəzifəsində qala bilsin. Niyə səsini çıxarmır? Niyə həbsxanada jurnalist öləndə səsini çıxarmayıb? Niyə pozuntular olanda səsini çıxarmayıb? Haradadır Avropa Şurası? Niyə Ermənistan tənqid olunmur? Niyə Ermənistan üzrə, siyasi məhbus üzrə məruzəçi təyin edilmir? Mən bütün bu sualları verirəm və bu suallar cavabsız qalır, bu suallara cavab verilmir. Çünki sərf etmir. Nə cavab verəcəklər? Cavab verəcəklər ki, biz saxtakarıq? Deməyəcəklər. Sadəcə olaraq, susmağa üstünlük verirlər.

Avropa qurumlarının saxtakarlığını biz Ermənistanda keçirilmiş bütün seçkilərdə görmüşük. Bütün seçkilər saxtalaşdırılıb, amma bütün seçkilərə müsbət rəy verilib. Heç uzağa getməyək. Guya ki, onlarda baş verən inqilabdan əvvəl Sarkisyan hakimiyyəti qanunsuz zəbt etmək istədi, parlament seçkilərini saxtalaşdırdı, özünə 50 faizdən çox səs yazdırdı. Avropa Şurası Parlament Assambleyası, ATƏT-in müşahidəçi missiyası buna müsbət rəy verdilər. Yaxşı, görmürdünüz ki, bu adam saxtakardır, bu adam səsləri oğurlayıb, Ermənistanda seçicilərin kütləvi qaydada satın alınması prosesi gedir?! Beynəlxalq müşahidəçilər Sarkisyan hakimiyyətinə, onun saxtalaşdırılmış seçkilərinə müsbət rəy verir, ondan sonra xalq ayağa qalxır. Çünki erməni xalqı Sarkisyana və onun xuntasına nifrət edirdi, bunu gizlətmirdi və nifrətəlayiq bir ünsürdür. O vaxt xalq ayağa qalxanda onun hansı aciz vəziyyətdə olmasını bütün dünya görüb, qorxa-qorxa çəkildi kənara, dedi ki, mən səhv etmişəm, məni bağışlayın, qaçdı getdi. Qorxaq. Bunun başqa adı yoxdur. Amma özünü qəhrəman kimi göstərirdi. O hansı qəhrəmandır, bütün dünya gördü. Azərbaycanın dinc əhalisinə qarşı cinayət törədən o cəllad qorxaqcasına qaçıb gizləndi. İndi də əsas məqsədi odur ki, həbs olunmasın. Yəni bu Sarkisyan xunta rejimi devriləndən sonra parlament seçkiləri elan olunur və onun faşist simvolikası ilə eyni simvolikası olan Respublikaçılar Partiyası heç 1 faiz də səs toplamır. Necə ola bilər, bir neçə ay bundan əvvəl o, 50 faiz, indi isə 1-2 faiz səs toplayır? Təbii ki, saxtakarlıq. Amma mənim sözüm onda deyil. O aydın məsələdir ki, Ermənistan saxta dövlətdir və əlbəttə ki, saxtakarlıq orada əsas amildir. Mənim sözüm bax, buna göz yuman, demokratiyadan dəm vuran, Azərbaycanı qaralamaq istəyən Avropanın saxtakar müşahidəçilərinədir. Cavab verin. Siz buna necə müsbət rəy vermisiniz ki, bu adama bütün erməni xalqı nifrət edir və seçkilər də onu göstərdi.

Ona görə bu məsələ tam aydındır və artıq bu riyakarlığın üstü tam açılıbdır. Artıq heç kimdə şübhə yoxdur ki, bütün bu qurumlar tərəfindən verilən qərarların əksəriyyəti siyasi xarakter daşıyır, siyasi sifarişdir. O ölkələr ki, onların qarşısında baş əyir, diz çökür, - Ermənistan kimi, - onların başını sığallayır, o ölkələr ki, ləyaqətli özünü aparır, ayaqda möhkəm durur və özünə qarşı hörmət tələb edir, - Azərbaycan kimi, - onlara hücum edir və hücumun da əsas tezisi insan haqları, demokratiyadır. Əlbəttə ki, bütün bunlar saxta iradlardır. Bayaq bizim haqqında danışdığımız beynəlxalq arenadakı uğurlarımız onu göstərir ki, Azərbaycan bu gün beynəlxalq siyasətin zirvəsindədir, amma bizə şər atanlar böhran içindədir.

**- Cənab Prezident, mənim sualım Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Bu yaxınlarda ATƏT-in Minsk qrupu da bəyanat yayıb. Ümumiyyətlə, son dövrlərdə danışıqlarda hansı proseslər gedir və danışıqlar prosesində Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik varmı?**

- Xeyr. Bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz. Çünki bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz həm tarixi ədalətə, eyni zamanda beynəlxalq hüquqa əsaslanır. Mənim bu məsələ ilə bağlı kifayət qədər açıqlamalarım olub, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində və bunu artıq bilməyən yoxdur. Ona görə bizim mövqeyimizdə hər hansı bir dəyişiklik mümkün deyil, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək. İşğal edilmiş bütün torpaqlar işğalçılardan azad edilməlidir, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qayıtmalıdırlar. Bu, prinsipial mövqedir və dünya birliyi bu mövqeyi dəstəkləyir.

Ölkəmizin ərazi bütövlüyü ilə əlaqədar bütün aparıcı beynəlxalq təşkilatlar müxtəlif vaxtlarda, o cümlədən son vaxtlarda açıq-aydın ifadələr işlədiblər, qərarlar, qətnamələr qəbul ediblər. BMT, onun Təhlükəsizlik Şurası, onun Baş Assambleyası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa İttifaqı, Avropa Şurası Parlament Assambleyası, NATO və digər təşkilatlar qətnamələr qəbul ediblər. Yəni bu, hüquqi müstəvidir, bizim mövqeyimizi tam möhkəmləndirən mənzərədir.

O ki qaldı, tarixi ədalətə, hesab edirəm ki, bu haqda Münxen Təhlükəsizlik Konfransında kifayət qədər açıqlamalar verildi. Eşitmişəm ki, mənim çıxışımdan sonra Ermənistanda Kürəkçay sülh müqaviləsini əzbərləyirlər. Çox yaxşı, əzbərləsinlər ki, tarixi yaxşı bilsinlər və özlərini, beynəlxalq ictimaiyyəti aldatmasınlar. Çünki Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlmə də yoxdur. Bu müqaviləni bir tərəfdən, İbrahim xan və digər tərəfdən, Rusiya generalı imzalayıblar. İbrahim xan Qarabağlı və Şuşalı - onun vəzifəsi haqqında bax, bu epitetlər, bu sözlər deyilmişdir. Beləliklə, bu tarixi həqiqət, əlbəttə ki, Ermənistan rəhbərliyi üçün gözlənilməz idi, yəqin bu tarixi bilmirdilər. Çünki onlar bir-birini o qədər aldadıblar, o qədər yalan danışıblar ki, bəzi hallarda bu yalana da inanırlar. Ermənistanın baş nazirinin Ermənistanda hansısa meydanda yalan danışması bir məsələdir, bu yalanı beynəlxalq tədbirdə utanmadan danışması isə digər məsələdir. O, erməni xalqına heç bir aidiyyəti olmayan çarı erməniləşdirib. Bu, tam yalandır. "Qarabağ Ermənistandır" - növbəti yalan. Bu məsələ ilə bağlı kifayət qədər tutarlı cavab da verildi. Ermənistanda baş verən hadisələrlə əlaqədar yalanlar.

Ona görə bu, məsələlərin bir tərəfidir. O ki qaldı, Minsk qrupunun bəyanatına, biz bunlardan başqa bəyanatlar, konkret bəyanatlar gözləyirik və onu eşitmək istəyirik. Ermənistanın baş naziri deyir "Qarabağ Ermənistandır". Buna mən cavab verirəm və lazımi cavab verirəm. Amma Minsk qrupu niyə buna cavab vermir? Niyə cavab vermir ki, bu ifadə, əslində, Minsk qrupunun formalaşdırdığı danışıqların mahiyyətini alt-üst edir, danışıqları faktiki olaraq əhəmiyyətsiz edir. Minsk qrupunun həmsədrləri buna adekvat reaksiya veriblər? Verməyiblər! Ermənistan tərəfi iki ildir danışıqların formatını dəyişmək istəyir və bəyan edir ki, Azərbaycan qondarma Dağlıq Qarabağın qondarma, saxta, dırnaqarası liderləri ilə danışıqlar aparmalıdır. Buna adekvat cavab verilir? Verilmir! Bəli, bəzi mücərrəd sözlərlə, nala-mıxa vurmaqla cavab verilir. Axı, o dövr keçibdir. Biz aydınlıq tələb edirik. Bu addımlar kim tərəfindən atılır? Ermənistan tərəfindən. Biz danışıqlar formatına da sadiqik, danışıqların mahiyyətini də əsas götürürük. Əlbəttə ki, o mahiyyətdə bizi heç də hər şey qane etmir. Ancaq biz demişik, bizi nə qane etmir və nə qane edir. Ermənistan nə edir? "Qarabağ Ermənistandır" deməklə tamamilə danışıqların mahiyyətini yerə vurur. "Formatı dəyişmək lazımdır" fikri danışıqları əhəmiyyətsiz edir. Yəni buna adekvat reaksiya verilməlidir, yoxsa yox?! Qondarma Dağlıq Qarabağ respublikasının saxta seçkiləri nəticəsində seçilməmiş saxta prezident Şuşada andiçmə mərasimi keçirir. Buna adekvat cavab verilir, yoxsa yox?! Axı bu, açıq-aydın təxribatdır. İndiyədək heç kim tərəfindən tanınmayan bu kriminal Dağlıq Qarabağ rejiminin bir neçə dırnaqarası seçkisi olub, Şuşada toy-bayram keçirilib. Nə üçün buna adekvat reaksiya verilmir? Nə üçün deyilmir ki, bu, təxribatdır və bu təxribata görə Ermənistan cavabdehlik daşıyacaq. Bunu mən deyirəm. Amma onlar deməlidirlər, əgər istəyirlər ki, bu məsələ sülh yolu ilə həll olunsun. Nədir bunların bəyanatında əsas tezis - hərb variantı mümkün deyil. Kim deyir? Gedin açın BMT-nin Nizamnaməsini, baxın görün, özünümüdafiə hüququ var ölkələrdə, yoxsa yox? Yoxsa siz özünüzü nə hesab edirsiniz?! Siz BMT-dən də üstünsünüz?! BMT-nin Nizamnaməsindən də üstünsünüz?! Belədirsə, gedin deyin, biz Minsk qrupunun həmsədrləri hesab edirik ki, BMT-nin Nizamnaməsində əks olunan bu tezis yanlışdır. Axı gərək hər şeyin həddi olsun. Ona görə biz onlardan daha ciddi, konkret və məqsədə ünvanlanmış bəyanatlar gözləyirik. Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparır. Mən bu məsələni dəfələrlə qaldırmışam. Bizim bütün beynəlxalq təşkilatlardakı nümayəndə heyətlərinin üzvlərinə göstəriş verilib ki, bu məsələ onların gündəliyində birnömrəli məsələ olmalıdır. Bu məsələ ilə bağlı Minsk qrupunun həmsədrləri açıqlama verir, yoxsa yox?! ATƏT-in axırıncı faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlarda 10 il bundan əvvəl olub. On il keçib. Son bir neçə il ərzində biz onlara təkidlə deyirik ki, yeni missiya getməlidir. Bu 10 il ərzində Ermənistan Suriyadan və başqa yerlərdən erməniləri oraya gətirib, onları zorla saxlayır. Bizim şəhərlərimizin tarixi adlarını dəyişdirir, işğal edilmiş torpaqlarda kilsələr tikir. Yəni sabah deyəcək ki, bu, erməni torpağıdır. Dəfələrlə demişik onlara. Reaksiya var? Yoxdur! Yəni 10 il ərzində faktaraşdırıcı missiyanı göndərmək olmaz? İstəmirlər. Gedib nə görəcəklər?! Görəcəklər ki, orada məskunlaşma gedir. Amma bunu 10 il bundan əvvəl öz məruzələrində əks etdiriblər. Yəqin ki, indi əks etdirmək istəmirlər. Bu haqda bəyanat verib Minsk qrupu? Verməyib! Bilirsiniz, indi biz də dözümlülük göstəririk və konstruktiv olmağa çalışırıq. Amma bu gün faktiki olaraq danışıqlar prosesi getmir. Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin videokonfranslarının heç bir əhəmiyyəti yoxdur. Bu, sadəcə olaraq, Minsk qrupunun sanki fəaliyyətdə olmasını göstərir. Yaxşı, nə qədər olar? Fəaliyyətdə olmaq fəaliyyətdə olmaq demək deyil. Mən demişəm ki, biz danışıqları imitasiya üçün aparası deyilik. Biz danışıqları mahiyyət üzrə aparmaq istəyirik. İndi onlar bir söz çıxarıblar - substantiv danışıqlar. Özləri bu sözü çıxarıblar, aydındır bunun mahiyyəti nədir - bəli, mahiyyət üzrə danışıqlar formatı dəyişmədən və masa üzərində olan danışıqlar predmetinə əlavə etmədən. Belə olan halda, əlbəttə, biz danışıqlarda iştirak edəcəyik. Əks halda, mənasız danışıqların aparılmasına heç bir ehtiyac qalmayacaq. Bax biz Minsk qrupundan bunu gözləyirik və öz mövqeyimizdə möhkəm dayanmışıq, haqq-ədalət bizim tərəfimizdədir. Biz haqlı olmağımızı həm beynəlxalq arenalarda göstərmişik, həm də döyüş meydanında və heç kimin Aprel döyüşləri yadından çıxmasın.

**- Cənab Prezident, çox sağ olun. Bizə vaxt ayırdığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk.**

- Sağ olun. Təşəkkür edirəm sizə.

# Heydər Əliyevlə Nursultan Nazarbayev arasındakı dostluq münasibətləri Azərbaycan - Qazaxıstan əlaqələrinin qurulmasında mühüm rol oynayıb

İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayevə telefonla zəng edib.



Dövlətimizin başçısı Nursultan Nazarbayevi yubileyi münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, Qazaxıstanın inkişafı naminə fəaliyyətində yeni uğurlar arzulayıb. Prezident İlham Əliyev Nursultan Nazarbayevin müstəqil Qazaxıstan Respublikasının quruculuğunda müstəsna rolunu qeyd edərək, məhz onun yorulmaz səyləri nəticəsində Qazaxıstanın böyük inkişaf yolu keçdiyini, xalqın rifah halının təmin edilməsi və ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində böyük nailiyyətlərin əldə edildiyini vurğulayıb. Dövlət başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevlə Nursultan Nazarbayev arasında mövcud olmuş dostluq münasibətlərinin ikitərəfli əlaqələrimizin qurulmasında mühüm rol oynadığını bildirib. Eyni zamanda Prezident İlham Əliyev Nursultan Nazarbayevin türkdilli dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi işinə verdiyi töhfələri də yüksək qiymətləndirib.

Nursultan Nazarbayev göstərilən diqqətə, təbrikə və xoş sözlərə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Qazaxıstan dostluq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

***Prezidentin Mətbuat xidməti***

# Milli şura üzvlərinin Azərbaycana atdığı böhtanlar erməni millətçilərinin əlində "tutarlı arqument" kimi istifadə olunur

"Prezident İlham Əliyevin tutarlı dəlil-sübutlarla Ermənistanın təcavüzkar siyasəti ilə yanaşı, erməni rəhbərliyinin korrupsiyaya bulaşması faktlarını ifşa etməsi tək Azərbaycan cəmiyyətinə deyil, ermənilərin özlərinə də yaxşı məlumdur. Bu tənqidlərin torpaqlarımızı işğal etmiş düşmənlərdə ciddi narahatlıq yaratması başa düşüləndir".



AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədovun özünün "Facebook" səhifəsində paylaşdığı yazıda yer alıb.

Əli Əhmədov qeyd edib ki, lakin nə qədər qəribə olsa da, Prezident İlham Əliyev tərəfindən erməni rəhbərliyinin ifşa edilməsinə ermənilərdən daha tez milli şura tərəfindən etirazlar səsləndirilməyə başlandı. Milli şuranın başında duran Cəmil Həsənlinin internet televiziyalarından birinə verdiyi müsahibəsi insanda belə təsəvvür yaradır ki, vaxtilə həbs olunan bir korrupsionerin "hüquqlarının" müdafiəsi komitəsinə rəhbərlik edən tarix professoru indi Prezident İlham Əliyevin amansızcasına ifşa etdiyi Ermənistan rəhbərliyinin "hüquqlarını" müdafiə komitəsi təsis edib. Əks halda onun bu dərəcədə canfəşanlıqla erməni korrupsionerlərinin müdafiəsinə qalxmasının motivlərini başa düşmək mümkün deyil.

"Mən dəfələrlə radikal müxalifətçilərin Azərbaycan hakimiyyətinə qarşı mübarizə aparmaq naminə irticaçı qüvvələrlə, hətta erməni millətçiləri ilə əməkdaşlığa hazır olduqlarını qeyd etmişəm. Növbəti dəfə onların bu yolda milli xəyanətdən belə çəkinmədiklərinin şahidi oluruq. Gözləndiyi kimi, milli şuranın milli xəyanəti erməni təbliğatının diqqətindən yayınmadı. Sosial media səhifələrində Cəmil Həsənli başda olmaqla milli şura üzvlərinin Azərbaycana atdığı böhtanlar erməni millətçilərinin əlində ölkəmizə qarşı apardıqları çirkin təbliğat kampaniyasında "tutarlı arqument" kimi istifadə olunur", - deyə Əli Əhmədov bildirib.

YAP-ın Sədr müavini Əli Əhmədov qeyd edib ki, bu insanların torpaqlarımızı işğal etmiş təcavüzkarların təbliğatçılarının dilindən yalnız "uvajaemıy muallim" (ermənilərin Azərbaycana qarşı hazırladıqları videoçarxlarda Cəmil Həsənlini belə adlandırırlar) epitetini qazanmaq naminə Azərbaycanın maraqlarını satmağa hazır olduqlarını düşünmək bəlkə də sadəlövhlük olardı: "Bu qədər ermənipərəstliyin, erməni heyranlığının, indiki erməni rəhbərliyinin təbliğində canfəşanlığın səbəbi olmaya bilməz. Yəqin ortada sövdələşmə qaydalarının bütün məqamlarının gözlənilməsi yox deyildir. Vaxtilə həmin cəbhəyə aid olan, şərti şəkildə desək, neytral zona olan Tiflisdə ermənilərlə Ruslan Bəşirli sövdələşməsi yaddaşlardan silinməyib. Lakin istənilən halda milli şura üzvlərinin yalan və böhtanları ölkəmizə qarşı aparılan erməni təbliğatında həvəslə istifadə olunur. Necə deyərlər, milli şura növbəti dəfə erməni dəyirmanına su tökməklə məşğuldur. Müasir siyasi leksikonda isə bunun adı xəyanətdir".

## Azərbaycan Respublikası Prezidentinin "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 6 iyul tarixli 668 nömrəli və "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1424-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 668 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 677; 2018, № 6, maddə 1216; 2019, № 1, maddə 65) 2.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2.5. həmin Qanunun 16.3-cü maddəsində ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.".

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 1013 nömrəli və 22 may tarixli 1039 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 41.3-cü bəndinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 41.4-cü bəndi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyul 2020-ci il*

# Türkiyə koronavirusla mübarizədə dəstək məqsədilə Azərbaycana humanitar yardım göndərib

İyulun 5-də qardaş ölkə Türkiyə yeni növ koronavirusla (COVID-19) mübarizədə dəstək məqsədilə Azərbaycana humanitar yardım göndərib.



AZƏRTAC xəbər verir ki, yardıma 30 ədəd süni tənəffüs aparatı, 55 min ədəd kombinezon, 50 min ədəd N95 maska, 100 min ədəd cərrahi maska, 5 min tibbi eynək, 200 min əlcək və virusun müalicəsində istifadə olunan 40 min qutu müxtəlif dərman preparatı daxildir.

Qardaş ölkənin bu addımının yüksək qiymətləndirildiyini vurğulayan Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib: "Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, biz bir millət, iki dövlətik. Azərbaycan və Türkiyə hər bir məsələdə olduğu kimi, COVID-19-a qarşı mübarizədə də birlikdədirlər. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birbaşa təşəbbüsü ilə Azərbaycana çatdırılan bu yardım bizim qardaşlığımızın bariz nümunəsidir. Azərbaycan və Türkiyə beynəlxalq müstəvidə də COVID-19-a qarşı mübarizədə birgə səy göstərirlər. Azərbaycan da 30-dan çox ölkəyə yardım göndərib, həmçinin Ümumdünya Səhiyyə Təşkilatına da dəstək göstərib".





Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral iki qardaş ölkə arasında sıx əlaqələrin olduğunu bildirib. Qeyd edib ki, Türkiyə koronavirus pandemiyasının yayılmasından bu günə qədər yüzə yaxın ölkəyə tibbi, qoruyucu ləvazimat yardımı göstərib, dərman preparatları göndərib.

Səfir vurğulayıb ki, Türkiyə virusla mübarizədə ancaq bütün ölkələrin əməkdaşlığı və həmrəyliyi ilə uğur qazanacağına inanır və hazırda yaşadığımız bu fövqəladə dövrdə, pandemiya ilə qlobal mübarizəyə öz töhfəsini vermək üçün maksimum səy göstərir: "Bu gün etdiyimiz bu yardım qardaş Azərbaycanın mübarizəsinə töhfə xarakteri daşıyır. Aramızdakı yaxın münasibətlərin nəticəsi olan bu yardım iki ölkənin dövlət başçıları - cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın hər fürsətdə nümayiş etdirdikləri qardaşlığın təzahürüdür. Fürsətdən istifadə edərək virus səbəbi ilə vəfat edən bacı və qardaşlarımızın yaxınlarına başsağlığı verir, xəstələrə tez bir zamanda şəfa diləyirik".

# Azərbaycan və Avropa İttifaqı arasında tərəfdaşlıq gündəliyinə daxil olan məsələlər müzakirə edilib

İyulun 6-da Xarici İşlər naziri Elmar Məmmədyarovun Avropa İttifaqının (Aİ) Qonşuluq və Genişlənmə məsələləri üzrə komissarı Oliver Varhelyi ilə videokonfrans formatında görüşü keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın Aİ yanında nümayəndəliyinin rəhbəri və Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri də iştirak ediblər.

Görüşün başlıca məqsədi Azərbaycan və Aİ arasında ikitərəfli tərəfdaşlıq gündəliyinə daxil olan, eləcə də Azərbaycanın Şərq Tərəfdaşlığı çərçivəsində iştirakı məsələlərinin müzakirəsi olub.

Xarici İşlər naziri COVID-19 pandemiyasının təsirlərinə qarşı mübarizə sahəsində Aİ-nin ölkəmizin milli səylərinə dəstək göstərən yardımlarına görə təşəkkürünü bildirib, bu çərçivədə bundan sonra da əməkdaşlığın praktiki istiqamətlərdə davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Videokonfrans zamanı Aİ-nin qaydalara əsaslanan dünya nizamı üzrə bölüşülən dəyərləri, o cümlədən dövlətlərin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstək verilməsi ilə bağlı prinsipial mövqeyi Azərbaycan Xarici İşlər naziri tərəfindən məmnunluqla qeyd edilib. Tərəflər Şərq Tərəfdaşlığı ölkələrinin gələn il keçirilməsi nəzərdə tutulan zirvə görüşü ilə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycanla Aİ arasında yeni ikitərəfli sazişə dair müzakirələr aparılıb və bu sazişin yekunlaşdırılmasında hər iki tərəfin maraqlı olduğu vurğulanıb. Yaxın zamanlarda tərəflərin saziş üzrə danışıqları yenidən davam etdirəcəyi qeyd olunub və danışıqlarda irəliləyişin əldə olunmasına dair ümid ifadə edilib.

Tərəflər həmçinin Vahid Aviasiya Məkanının yaradılması haqqında saziş, tərəfdaşlıq prioritetləri, Azərbaycanın Aİ proqramlarında iştirakı, vizaların ləğvi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Enerji və nəqliyyat bağlılığı sahələrində əməkdaşlıq məsələləri üzrə müzakirələr aparan Azərbaycan və Aİ rəsmiləri hər iki istiqamətdə mövcud olan böyük layihələr və onların gələcək inkişafı perspektivlərini nəzərdən keçiriblər.

Görüşün sonunda növbəti Aİ-Azərbaycan Əməkdaşlıq Şurasının keçirilməsi barədə fikir mübadiləsi baş tutub.

Hər iki tərəf mövcud qlobal pandemiya şəraitində onlayn müzakirələrin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, pandemiyadan sonra birbaşa təmasların və görüşlərin təşkilini razılaşdırıblar.

# Prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsi işləri davam etdirilir

Azərbaycan Respublikasının prokurorluq orqanlarında kadr korpusunun komplektləşdirilməsi istiqamətində işlər həyata keçirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə Qabil Səfərova Mingəçevir şəhərinin, Fəxrəddin Pənahova Sabirabad, Kamran Əhmədova Xocavənd, Elnur Rüstəmova isə Füzuli rayonlarının prokuroru vəzifələrinin icrası həvalə edilib. Bundan başqa, Baş prokurorun imzaladığı digər əmrlərlə Sahib İsmayılov Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin Statistika şöbəsinin rəisi-idarə rəisinin müavini, Rəsul Həsənov isə Gəncə şəhər prokurorunun müavini vəzifələrinə təyin olunublar.

Kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə formalaşdırılması istiqamətində islahatlar davam etdirilir.

# Bu ilin 6 ayında ölkədə əməkhaqqı fondu 8 faiz artıb

Pandemiya dövründə həm dövlət sektoru üzrə 910 min iş yerinin qorunması təmin edilib, həm də özəl sektorda iş yerlərinin qorunması üçün tədbirlər görülüb. Hətta özəl sektorda bu ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayı 110 min və ya 17 faiz artıb.

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev müsahibəsində bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir qeyd edib ki, hazırda özəl sektorda 750 min əmək müqaviləsi ilə çalışan var. Dövlət və özəl sektor üzrə əmək müqavilələrinin sayında isə 7 faizlik artım baş verib.

S.Babayev diqqətə çatdırıb ki, əmək müqavilələrinin artımı kölgə iqtisadiyyatının azaldılması, qeyri-formal məşğulluğun leqallaşdırılması hesabına yaranır.

Əmək müqavilələrinin artımı əməkhaqqı fondunun artmasına da səbəb olub. Bu ilin 6 ayında ölkədə əməkhaqqı fondu 8 faiz artıb. Bu, formal məşğulluğun əhatəsinin genişləndirilməsi baxımından da çox önəmlidir.

# Dövlət Təhlükəsizliyi Xidməti Xarici İşlər Nazirliyində keçirilən əməliyyatla bağlı məlumat yayıb

Məlumat verildiyi kimi, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı qanunazidd əməllərə yol verməleri ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinə (DTX) daxil olmuş məlumatlar əsasında istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, XİN-in ayrı-ayrı strukturlarının fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulan dövlət vəsaitlərinin ələ keçirilməsi, müxtəlif fəaliyyət istiqamətləri üzrə, eləcə də xarici ölkə vətəndaşlarının viza müraciətləri ilə bağlı rüşvət alınması və sair hüquqazidd əməllərin törədilməsi ilə bağlı əldə edilmiş məlumatlar araşdırılıb, nazirliyin İşlər idarəsinin müdiri, nazirliyin Tender Komissiyasının sədri Fərhad Mollazadə, İşlər idarəsinin Təsərrüfat şöbəsinin müdiri Səlim Əlizadə və Konsulluq idarəsinin Konsulluq-hüquq şöbəsinin rəisi Nurupaşa Abdullayev tərəfindən çoxsaylı qanunsuz əməllərə yol vermələrinə əsaslı şübhələr müəyyən edilib.

Məhkəmənin qərarları əsasında Fərhad Mollazadənin, Səlim Əlizadənin, Nurupaşa Abdullayevin xidməti və yaşadıqları ünvanlara, habelə dövlət vəsaitlərinin əmtəəsiz əməliyyatlarla mənimsənilməsi üçün yaradılmış hüquqi şəxslərə dair sənədlərin və işlərin görülməsi üçün vəsait ayrılması müqabilində rüşvət ödənildiyi barədə sənədlərin olduğu yerlərə baxış keçirilib. Həmin ünvanlardan XİN-in vəzifəli şəxslərinə qaytarılmış nağd pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, pul vəsaitləri və iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkarlanaraq götürülüb.

İstintaq araşdırmaları zamanı Fərhad Mollazadə və Səlim Əlizadə tərəfindən XİN-in strukturlarının fəaliyyətinin təmin edilməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin bir hissəsinin müntəzəm olaraq mənimsənilməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Həmçinin Fərhad Mollazadənin və Səlim Əlizadənin XİN-in təsərrüfat tələbatları üzrə malların alınması, işlərin görülməsi üçün hesablarına pul köçürülən sahibkarlardan həmin vəsaitin müəyyən hissəsi dəyərində rüşvətin istənilərək almalarına dair məlumatlar əldə olunub.

Bundan başqa, aparılan araşdırmalarla Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin Konsulluq-hüquq şöbəsinin rəisi Nurupaşa Abdullayevin vəzifə səlahiyyətlərindən istifadə edərək elektron vizanın tətbiq olunmadığı xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasına gələ bilmələri üçün viza müraciətlərinin təmin edilməsi ilə bağlı qanunazidd hərəkətlər müqabilində müntəzəm rüşvət almasına əsaslı şübhələr müəyyən olunub.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Fərhad Mollazadə və Səlim Əlizadə vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma, Nurupaşa Abdullayev rüşvət alma faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İlham Əliyev yeni siyasi konfiqurasiyanın uğurlu memarıdır

## DADP sədri Əlisahib HÜSEYNOV: "Prezident əsl islahatçı cəsarəti nümayiş etdirərək ölkənin siyasi səhnəsini yenidən qurur, siyasi vitrini təzələyir, siyasi opponentlərə görüş və barış əlini uzadır"

*Əvvəli 1-ci səh.*

Xatırlayırsınızsa, dövlət başçısı bütün bu yeniliklərin anonsunu hələ 2018-ci ilin 18 aprelində keçirilən prezident seçkilərində yekdilliklə qalib gəldikdən sonra andiçmə mərasimindəki nitqində vermişdi. Həmin nitqdə yer alan islahat anonsu ölkənin siyasi həyatında tamamilə yeni bir dövrün başlanacağını ehtiva edirdi. Sosial-iqtisadi sahədə islahatlara paralel olaraq siyasi sahədə islahatlar amilinin önə çəkilməsi, islahatlar paketində siyasi partiyalarla bağlı ciddi məqamların öz əksini tapması, onların fəallığının artırılmasının nəzərdə tutulması həlledici faktora çevrildi. Ölkənin əsas idarəetmə strukturunda - Prezident Administrasiyasında ilk dəfə olaraq Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması bütövlükdə siyasi proseslərə yeni yanaşmanın təzahürü kimi ortaya çıxdı".

Əlisahib Hüseynov bildirdi ki, son illərdə siyasi partiyalar ölkənin ictimai-siyasi həyatında bir o qədər də aparıcı mövqeyə malik deyildilər və bunun da bir sıra obyektiv-subyektiv səbəbləri var: "Əsas səbəblərdən biri kimi isə onu deyə bilərəm ki, siyasi partiyalarla işin aparılmasına bilavasitə məsuliyyət daşıyan şəxslər ötən ilin sonunadək olan müddətdə nədənsə, partiyaları proseslərdən kənarda saxlamağa çalışırdılar, partiyaların varlığı ilə hesablaşmayaraq rəsmi dövlət qeydiyyatına alınmış partiyaların əksəriyyətinin fəaliyyətinin sönükləşməsinə gətirib çıxarmışdılar. Sanki AXCP-dən və onun lideri Əli Kərimlidən başqa heç bir siyasi qüvvə yox idi. Yerdə qalan partiyaların varlığını görməzdən gəlirdilər. DADP kimi iqtidaryönümlü partiyalara münasibət haqqında isə, ümumiyyətlə, heç danışmağımıza dəyməz. Bir vaxtlar iqtidaryönümlü partiyaların Məşvərət Məclisinin tərkibində öz fəallığı ilə diqqəti cəlb edən partiyaların fəaliyyəti təəssüf ki, siyasi dialoqu aparmalı olan keçmiş məmurların məhz ögey münasibəti nəticəsində tamamilə dayandı, çökdü. Çünki nə iqtidar-müxalifət münasibətlərinin sağlam əsaslar üzərində təşəkkül tapmasında, nə də ki, iqtidaryönümlü partiyaların Prezidentin yürütdüyü siyasətə real mənəvi-siyasi dəstək nümayiş etdirməsində maraqlı deyildilər. Siyasi partiyalarla münasibətləri sanki məqsədyönlü şəkildə iflic vəziyyətinə salmışdılar. Partiyalara qarşı bu cür qeyri-sağlam münasibət isə heç şübhəsiz ki, dövlətin yürütdüyü siyasətə də neqativ təsir göstərirdi".

Həmsöhbətim qeyd etdi ki, siyasi partiyalara qarşı diskriminasiya siyasətinə məhz Prezident İlham Əliyevin başlatdığı islahatlar nəticəsində son qoyuldu. Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması siyasi qüvvələrlə münasibətlərin tənzimlənməsi üçün dönüş nöqtəsi oldu. Yeni şöbənin yaradılması ilə hakimiyyət birmənalı şəkildə nümayiş etdirdi ki, ölkədə yeni siyasi sistemin təşəkkül tapmasında, siyasi subyektlərin bir-biri ilə sağlam mübarizə aparmasında, siyasi rəqiblik anlayışına yeni baxışın ortaya qoyulmasında, cəmiyyətdə siyasi antaqonizmin aradan qaldırılması və barış əhvali-ruhiyyəsinin bərqərar edilməsində, qisasçılıq və söyüş ritorikasına son qoyulmasında qeydsiz-şərtsiz maraqlıdır. "İlham Əliyev əsl islahatçı cəsarəti nümayiş etdirərək ölkənin siyasi səhnəsini yenidən qurur, siyasi vitrini təzələyir, siyasi opponentlərə görüş və barış əlini uzadır. İndi ölkəmizin siyasi səhnəsində öz siyasi rəqiblərinə, müxalifət qüvvələrinə də bərabər imkanlar yaradan yeni siyasi iradə, yeni siyasi təfəkkür mövcuddur. Hakimiyyət öz siyasi rəqibləri ilə diktat dili ilə yox, siyasət dili ilə danışmaq üçün yeni yaradılan müvafiq şöbəyə rəhbərlik etməyi də kifayət qədər təcrübəli dövlət adamına həvalə edib.

Siyasi partiya rəhbərləri ilə, o cümlədən müxalif düşərgənin simaları ilə Ədalət Vəliyevin müntəzəm görüşlərinin keçirilməsinə start verilməsi yeni siyasi dialoq mühiti yaratdı. Bu, siyasi partiyalara münasibətdə yeni baxışın və formatın mövcudluğunun real göstəricisi idi. Ambisiyaları və əsassız şərtlər irəli sürmələri üzündən dialoq prosesinə qoşulmayan bir neçə radikal müxalifət qurumundan başqa, bütün siyasi qüvvələr dövlətin stimullaşdırdığı yeni siyasi konfiqurasiyanın içində yer almağa başladılar", - deyə DADP sədri bildirdi.

### Cəmiyyətə səmərəli təkliflərlə çıxış edən intellektual və konstruktiv müxalifət lazımdır

Bu ilin fevral ayında Milli Məclisə keçirilən VI çağırış parlament seçkilərindən sonra isə ölkənin yeni siyasi sisteminin formalaşdırılması üçün olduqca önəmli addımlar atıldı, müxalif partiyaların nümayəndələri ali qanunverici orqanın rəhbər heyətində təmsil olunmağa başladılar. Bu barədə danışan DADP sədri dedi ki, Prezident İlham Əliyevin parlamentin ilk iclasında səsləndirdiyi fikirləri isə bu yeni siyasi sistemin təşəkkül tapması prosesinin məntiqi yekunu kimi nəzərdən keçirə bilərik: "Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır. Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini qazanıb. Təbii ki, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə sözü kifayət qədər qiymətlidir və təsirlidir. Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar bu gün səhər mənim tapşırığıma yığışmışlar və önəmli qərarlar qəbul etmişlər. Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri VI Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır".

Milli Məclis Sədrinin müavinlərindən birinin müxalifət partiyasının, digərinin isə bitərəflərin nümayəndəsinin olması, həmçinin komitə sədrlərinin müavinləri arasında da müxalifətçilərin yer alması Prezidentin fikirlərinin gerçək təsdiqidir.

Azərbaycan iqtidarı siyasi qütblər arasında dialoqa hər zaman açıq olub. Xüsusən də ümummilli məsələlərlə bağlı qərarların qəbul edilməsi zərurəti ortaya çıxanda iqtidar cəmiyyətin və siyasətin bütün subyektlərinin mövqeyini, rəyini hər zaman nəzərə almağa çalışıb. Bu barədə danışan partiya sədri dedi: "Bildiyiniz kimi, Azərbaycan müstəqillik əldə etdikdən sonrakı ilk dönəmlərdə ölkədə sürətlə partiyalaşma prosesi getdi və bir sıra Qərbyönümlü siyasi partiyalar ortaya çıxdı. Həmin dövrdə siyasi partiyalar nisbətən fəal rol oynasalar da, lakin sonradan proseslərin gedişatına adekvat siyasət yürüdə və elektoratın ümidlərini doğrulda bilmədiklərinə görə tədricən zəiflədilər. Onların yerinə isə dini və etnik spektrə malik partiyalar gəldi. Bu isə öz növbəsində dünyəvi (sekulyar) siyasət yürüdən partiyaların ciddi şəkildə zəifləməsinə gətirib çıxardı.

Digər tərəfdən isə, dünyəvi partiyaların bir hissəsi ifrat radikal siyasət yürütdüklərinə və iqtidara qarşı davamlı şəkildə konfrantasiya mövqeyi tutduqlarına görə öz sosial bazalarını tamamilə itirdilər, bir ovuc marginallaşmış qrupa çevrildilər. Bütün bunlar son nəticədə Azərbaycan siyasətini az qala müxalifətsiz bir duruma gətirdi. Bu isə qlobal mənada Azərbaycanın maraq və mənafeləri üçün əlverişli hal sayıla bilməz. Prezident də bunun fərqində olduğuna görə dünyəvi müxalifətimizə ikinci nəfəs, ikinci şans vermək xəttini seçdi. Çünki Prezident istəyir ki, ölkədə keyfiyyətcə yeni, işgüzar, konstruktiv müxalifət olsun. İndi ölkəmizə yalnız mitinq ab-havasına köklənən, işigücü "istefa" şüarı qışqırmaqdan ibarət olan məqsədsiz, sistemsiz, keyfiyyətsiz "müxalifət" yox, proseslərə adekvat və çevik reaksiya verən, vizyonu geniş olan, iqtidarın qarşısında faydalı, səmərəli təkliflərlə çıxış edən intellektual və konstruktiv müxalifət lazımdır".

Qeyd olundu ki, Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyevin moderatorluğu ilə başlanan siyasi müzakirələr Azərbaycanda partiyalaşma prosesini keyfiyyətcə yeni müstəviyə qaldırır və iqtidar-müxalifət dialoqunun genişlənməsinə yeni impuls verir: "Buna iqtidarın müxalifətə ikinci nəfəs verməsi təşəbbüsü kimi baxmaq lazımdır. Baxın, Prezident açıq mətnlə deyir ki, Azərbaycana müxalifət lazımdır. Çünki Prezident bilir ki, müxalifətsizlik və ya zəif müxalifət həm cəmiyyətin inkişafına mane olur, həm də ölkənin beynəlxalq imicinə neqativ təsir göstərir. Prezident məsələlərə məhəlli siyasi rəqabət prizmasından, dar çərçivədən yanaşmır. Dövlət başçısı strateji düşünür. Çünki ölkənin gələcək hədəflərini nəzərə alır. Hakimiyyət strukturlarının siyasi partiyalarla görüş və dialoquna da məhz bu aspektdən yanaşmalıyıq. Bu çox önəmli məsələdir. Prezident İlham Əliyev demokratik açılımlara imza atır, siyasi plüralizm və dialoq tərəfdarı kimi çıxış edir. Mən dialoqun başlanmasını Prezidentin demokratiya naminə böyük fədakarlığı kimi qiymətləndirirəm. Radikal müxalifət düşərgəsindəki opponentlərimizin dialoq prosesinə necə yanaşması isə önəmli deyil. Çünki onlar daim inkarçı mövqedən çıxış edirlər".

### Siyasi əməkdaşlıq tendensiyalarının aparıcı amil olduğu mühit formalaşmaqdadır

O da diqqətə çatdırıldı ki, Prezident İlham Əliyevin apardığı siyasi islahatların tərkib hissəsi kimi yeni siyasi konfiqurasiyanın formalaşması artıq öz müsbət nəticələrini də verməkdədir. Belə ki, aprel-may aylarında üç siyasi partiya Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınıb. Nəzərə alsaq ki, bundan əvvəl uzun müddət partiyaların qeydə alınması hadisəsinin şahidi olmamışdıq, sözügedən üç partiyanın dövlət qeydiyyatına alınması barədə şəhadətnamələrin həmin partiyaların rəhbərlərinə rəsmən təqdim edilməsi həqiqətən də son dövrlərin ən vacib siyasi hadisələrindən biri hesab oluna bilər. Bu, eyni zamanda, yeniləşən siyasi münasibətlərin bir təzahür elementidir. "Bütün bunlar onu göstərir ki, ölkəmizdə siyasi əməkdaşlıq tendensiyalarının artıq həqiqətən də aparıcı amil olduğu bir mühit formalaşmaqdadır. Ölkəmiz üçün, siyasi qüvvələr üçün tamamilə yeni bir dövr başlayıb. Prezidentin qətiyyətli addımları sayəsində dəyişikliklər ab-havası siyasi sistemin bütün komponentlərinə öz müsbət təsirini göstərməkdədir. Siyasi həyatda ciddi canlanma müşahidə edilir. Siyasi qüvvələrin fərqli yanaşmaları dəyərləndirilir və rəsmi qurumlar tərəfindən nəzərə alınır. Başqa sözlə desək, artıq siyasi rəqiblərin də səsləri eşidilir. Qeyd etdiyim bu kimi məqamlar ölkədə həqiqətən də, yeni siyasi mərhələnin başlanmasını ehtiva edir, yeni siyasi konfiqurasiyanın uğurla inşa edildiyini göstərir. Yeni siyasi konfiqurasiyanın təşəbbüskarı da, memarı da heç şübhəsiz ki, Prezident İlham Əliyevdir. Hesab edirəm ki, istər müxalifət partiyaları, istərsə də iqtidaryönümlü partiyalar İlham Əliyevin yeni siyasi konfiqurasiyanı uğurla formalaşdırmasından və günümüzün reallığına çevirməsindən tam mənada razıdırlar", - deyə partiya sədri bildirdi.

DADP sədri xüsusilə vurğuladı ki, bu yeni düzənin əsas özəlliyi ondan ibarətdir ki, inqilabi islahatlar və yeniləşmə prosesi Prezidentin öz təşəbbüsü və iradəsi ilə başlayıb: "Yəni bu prosesin hərəkətverici qüvvəsi də, baş ideoloqu da ölkənin birinci şəxsinin özüdür. İlham Əliyev yeni siyasi ideyaları gündəmə gətirir, yeni siyasi institutların təməlini qoyur, yeni siyasi ənənələr formalaşdırır. Ölkənin siyasi mədəniyyəti də, siyasi-etik mənzərəsi də müsbət mənada dəyişir, korreksiya olunur. Prezident siyasi qüvvələr üçün yeni fəaliyyət meydanı açır, əlverişli ortam yaradır. Ümid edirəm və gözləntim də budur ki, siyasi qüvvələr bu meydandan və bu imkanlardan ölkəmizin tərəqqisi və xalqımızın parlaq gələcəyi üçün düzgün və səmərəli şəkildə yararlanmağa çalışacaqlar".

### Prezidentin yürütdüyü siyasəti dəstəkləyirik

Cəmiyyətin müasirləşən siyasi həyatında, yeni dialoq mühitində DADP-nin hansı təşəbbüs, proqram və təkliflərlə çıxış etməsi barədə də söhbətləşdik. Qeyd olundu ki, DADP Prezidentin start verdiyi siyasi sistemin yenilənməsi prosesinin fəal iştirakçılarından biridir. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin ilk əlaqə qurduğu partiyaların sırasında DADP da yer alıb: "Mən də Ədalət müəllimlə görüşdüm. Onunla partiyamızı narahat edən məsələlər barədə olduqca səmərəli və geniş fikir mübadiləmiz oldu. Ədalət Vəliyev fikir və təkliflərimizi diqqətlə dinlədi. Mən onunla söhbətin gedişində sözügedən şöbənin yaradılmasının ölkənin siyasi sisteminin modernləşdirilməsi prosesində olduqca vacib rol oynayacağına bir daha əmin oldum. Heç şübhəsiz ki, DADP Prezident İlham Əliyevin start verdiyi yeni siyasi sistemin formalaşdırılması prosesini dəstəkləyir və Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ilə bu sahədə yaxından əməkdaşlıq etməyə hazırdır".

Əlisahib Hüseynov rəhbərlik etdiyi siyasi təşkilat barədə məlumat verərək bildirdi ki, DADP 1993-cü ildən fəaliyyət göstərir. Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə yaradılan DADP Azərbaycan Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən siyasi təşkilatdır: "Partiyamız öz sıralarında Azərbaycanı inkişaf etmiş dünyəvi və hüquqi dövlət kimi görmək istəyən, güclü iqtisadiyyat və vətəndaş cəmiyyəti qurmaq ideyalarını bölüşən vətəndaşları birləşdirir. DADP sabitliyin qorunması, demokratik siyasi münasibətlərin oturuşması, tarixi ənənələrə və müasir dünya təcrübəsinə əsaslanan milli dövlətimizin qorunması və inkişaf etdirilməsi kimi ümdə vəzifələri öz fəaliyyəti üçün prioritet hesab edən sağ mərkəzçi partiyadır. Biz "Yolumuz haqq yoludur, Heydər Əliyev yoludur" devizi əsasında fəaliyyət göstəririk. Partiyamız YAP-ın müttəfiqlərindən hesab olunur. Yeni Azərbaycan Partiyası kimi DADP də Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, ölkəmizin beynəlxalq arenada layiqli yer tutması, ərazi bütövlüyümüzün təmin edilməsi, vətəndaşlarımızın dinc və firavan həyatının təmin edilməsi, azərbaycançılıq, milli həmrəylik, hüquqi dövlət quruculuğu və sosial ədalət prinsiplərindən çıxış edir. Bu prinsiplər bizim partiyanın ideya bazasını təşkil edir və eyni zamanda ölkənin siyasi həyatındakı yerimizi müəyyən edir.



Partiyamız 28 illik fəaliyyəti ərzində daim öz prinsiplərinə sadiq qalıb, sabit mövqe nümayiş etdirib. Biz ilk gündən iqtidaryönümlü partiya kimi fəaliyyət göstərmişik. DADP müxalifət düşərgəsindən iqtidar düşərgəsinə transfer edən və ya əksinə, iqtidarçı kursdan müxalif mövqeyə sıçrayan partiyalardan deyil. Biz Heydər Əliyevə, onun siyasi dühasına rəğbət bəsləyənlərin partiyası kimi yaranmışıq və bu gün də onun kursuna sadiqik, onun kursunu davam etdirən Prezident İlham Əliyevin yürütdüyü siyasəti dəstəkləyirik. Biz ölkədə gedən prosesləri diqqətlə izləyir, hakimiyyətin atdığı addımları təhlil edir və media üzərindən proseslərə öz münasibətimizi bildirir, konsept yanaşmalarımızı təqdim edirik. Biz İlham Əliyevin yürütdüyü siyasəti Azərbaycanın hazırki mənafelərinə və perspektiv hədəflərinə tamamilə uyğun hesab edirik. Bu siyasətin alternativi yoxdur. İlham Əliyev kifayət qədər optimal və səmərəli siyasət yürüdür".

İstənilən siyasi təşkilat daim cəmiyyətə yeni ideyalar, konsepsiyalar təqdim etməyi bacarmalıdır. Əlisahib Hüseynovun sözlərinə görə, DADP olaraq ölkənin inkişafı ilə bağlı konseptual baxışlarımızı, problemlərdən çıxış yollarını vaxtaşırı səsləndirirlər: "Bizim əsas təşəbbüslərimizdən biri isə iqtidaryönümlü partiyaların Məşvərət Məclisinin fəaliyyətinin yenidən bərpa edilməsi ilə bağlı olub. Çünki hesab edirik ki, bu gün iqtidarı dəstəkləyən, İlham Əliyevin islahatlar kursunu cəmiyyətdə geniş təbliğ edən yeni siyasi hərəkata, bloka ehtiyac var. Bu blokda təkcə siyasi partiyalar deyil, ictimai təşkilatlar da, cəmiyyətdə geniş nüfuzu olan ziyalılar da, ekspertlər də təmsil oluna bilər. Prezidentin apardığı uğurlu siyasətin təbliği təkcə rəsmi KİV-in xəbər və şərhləri ilə məhdudlaşmamalıdır. Bu təbliğatın formatını və çərçivəsini daha da genişləndirmək lazımdır. Radikal müxalifətin və bəzi xarici güclərin iddia və arqumentlərinə qarşı daha sanballı və tutarlı cavabların verilməsi üçün, həmçinin iqtidarın gördüyü işləri ictimaiyyətə daha tez və effektiv şəkildə çatdırılması üçün Məşvərət Məclisi kimi konsultativ qurumlara hava-su kimi ehtiyac var. Biz bir vaxtlar Məşvərət Məclisində aparıcı rol oynayan partiyalardan biri kimi bu qurumun fəaliyyətinin yenidən bərpa edilməsi üçün karantin rejimi bitəndən sonra zəruri prosedur addımları atacağıq. Ölkə siyasətinin digər məsələləri və DADP-dövlət münasibətləri ilə bağlı təkliflərimizi isə Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinə təqdim etmişik. Düşünürəm ki, təkliflərimiz müsbət dəyərləndiriləcək. Çünki partiyamızla sözügedən şöbə arasında artıq çox gözəl və səmərəli əməkdaşlıq münasibətləri formalaşıb".

### Bəzi müxalif qüvvələr hələ də 90-cı illərin meydan, mitinq psixologiyası ilə yaşayır

DADP sədrinin fikrincə, yeniləşən siyasi sistemdə müxalifət partiyalarının fəaliyyətinin təkmilləşməsinə də xüsusi ehtiyac var. "Çünki bu gün müxalif "90-cı illər sindromu"ndan əziyyət çəkir. Yəni ki, bərin 90-cı illərindəki meydan, mitinq psixologiyası ilə yaşayır. Sivil müxalifət anlayışı bir çoxlarının təfəkkür və təsəvvüründə hələ tam şəkildə oturuşmayıb.

Üstəlik, müxalif siyasi təşkilatlarda partiyalaşma və təşkilatlanma prosesi də yarımçıq qalıb. Odur ki, bu gün əksər müxalifət partiyalarının fəaliyyəti siyasi dərnək, siyasi diskussiya klubuna bənzəyir. Hazırki, Azərbaycan müxalifəti daha çox virtual müxalifətdir. Çünki Azərbaycan müxalifəti çoxdandır ki, reallıq hissini itirib və siyasi reallıqdan uzaqlaşıb. Onlar virtual dünyada yaşayırlar. Bu gün müxalif siyasətçilərin əksəriyyəti sadəcə bloggerlik fəaliyyəti ilə məşğuldur və bu da onları qane edir. Onların sosial bazası da özləri kimi mifik və irrealdır. "Youtube"dakı isterik çıxışları ilə 30-40 min izləyici toplayan blogger-liderlər təşkil etdikləri real mitinqlərə isə heç 3-4 min tərəfdaş toplaya bilmirlər. Odur ki, onlar get-gedə reallıqdan daha çox uzaqlaşırlar. Lakin sosial şəbəkələr və "Youtube" platforması üzərindən edilən pafoslu çıxışlarla, çağırışlarla müxalifətçilik olmur. Axı bu çıxışlardan başqa onları xalqa yaxınlaşdıra biləcək nə taktikaları, nə də ki, strateji hədəfləri yoxdur. Elə ona görədir ki, xalqın real dəstəyini qazana bilmirlər. Çünki sosial şəbəkələr üzərindən edilən məsuliyyətsiz və populist çıxışların arxasında real iş dayanmır. Müxalifət liderləri insanları xəyal qırıqlığına uğradır və öz sosial bazalarını itirirlər.

DADP sədri marginallaşan qüvvələri siyasi partiya hesab etmədiyini də dedi. Çünki marginallaşma ilə normal siyasi fəaliyyət bir-birinə tamamilə zidd anlayışlardır: "Yaxşı olar ki, radikal müxalifətçilər bu barədə də ciddi-ciddi düşünsünlər. O ki qaldı bu partiyaların fəaliyyətinə, bu gün onların real mövcudluğu haqda hər hansı bir fikir söyləmək mümkün deyil. Çünki radikal müxalifətçilər reallıqla əlaqələrini tamamilə itiriblər, xalqdan tamamilə ayrı düşüblər. Radikal müxalifət tamamilə iflas edib. Radikal müxalifətin real mövcudiyyətinə çoxdan son qoyulub. Əli Kərimli, Cəmil Həsənli, İbrahim İbrahimli, Gültəkin Hacıbəyli, Arif Hacılı kimi 3-5 nəfər qalıb ki, onlar da fəaliyyətlərini videokonfrans formatına və sosial şəbəkələrə keçiriblər. Bu adamlar özləri öz əlləri ilə radikal müxalifətə qəbir qazıblar. "Milli Şura"nın "Zoom" proqramı ilə təşkil etdiyi onlayn müzakirələrdəki biabırçı söhbətlərin üzə çıxması radikal müxalifətimizin nə gündə olduğunu bir daha əyani şəkildə gözlər önünə sərdi. Bu müzakirələr radikal müxalifət üçün sonun başlanğıcı yox, sonun sonu oldu".

Əlisahib Hüseynovun sözlərinə görə, həmin ifşaedici görüntülərdən sonra əslində radikal müxalifət liderləri özlərində güc tapıb və üzlərinə üz basıb sonuncu dəfə xalqın qarşısına çıxmalı, dönə-dönə xalqdan üzr istəyərək siyasətdən həmişəlik getməliydilər: "Bütün sivil ölkələrdə siyasətçilər məhz bu yolu seçirlər. Hətta postsovet ölkələrinin də bir çoxunda biz bunun şahidi olmuşuq. Əli Kərimli kimi uğursuz siyasətçilərin partiya sədrliyindən və müxalifət liderliyindən dördəlli yapışmaları isə onların psixoloji durumlarının yerində olmadığını göstərir. Heç bir ölkədə müxalifət lideri 20-30 il fasiləsiz olaraq partiya sədri kürsüsündən yapışıb durmur. Ölkədə demokratik azadlıqların pozulmasından dəm vuran bu cür hikkəli "demokrat"lar rəhbərlik etdikləri partiyalarda elementar demokratik prosedur qaydalarına belə əməl etmirlər. Onların fikirlərinə əks fikir söyləyən partiya funksionerləri dərhal gözümçıxdıya salınır. Bu cür "müxalifət"çiliklə siyasətdə böyük uğurlara imza atmaq və Azərbaycana fayda vermək mümkün deyil. Odur ki, hesab edirəm ki, xaricdəki bəzi anti-Azərbaycan qüvvələrinin əli ilə ölkədə daxili sabitliyi pozmağa və "beşinci kolon" rolunu yerinə yetirməyə çalışan radikal müxalifət funksionerləri tezliklə tarixin arxivində gömüləcəklər. Azərbaycan siyasətində radikallığa, bolşevizmə və "beşinci kolon"çuluğa yer yoxdur. Mənim marginallar haqda mülahizələrim və qənaətim bundan ibarətdir".

Partiya sədri onu da əlavə etdi ki, müxalifət belə olmalı deyil və bolşeviksayağı müxalifətçilik Azərbaycana yaxşı heç nə vəd etmir: "Məxməri inqilab"ların havasından çıxmaq lazımdır. Müxalifətçilik isterik şəkildə qışqırmaq, qarşı tərəfi səbəbli-səbəbsiz təhqir etmək, rəqibləri söymək deyil. Bu cür müxalifətçilik dövrü artıq çoxdan geridə qalıb. Azərbaycan insanı bu cür müxalifətçilik anlayışını qəbul etmir. Müxalifətçiliyin fəlsəfəsi dəyişməlidir. Yeni siyasi sistemdə yer almaq istəyən müxalifət qüvvələri əvvəlcə öz təfəkkür və baxışlar sistemində köklü dəyişiklik etməlidir. Müxalifətçilik qaragüruhçuluğa, zorakılığa, qiyam və terror anlayışına söykənməməlidir. Müxalifət dağıdıcı, yıxıcı olmaqdan əl çəkib, qurucu, yaradıcı, yapıcı olmalıdır. Yeni siyasi konfiqurasiyada müxalifətin rolu, funksiyası, fəaliyyəti çılğın emosiyalar üzərində deyil, töhfəverici intellekt üzərində, səmimi vətənpərvərlik üzərində, barış ruhu üzərində köklənməlidir. Müxalifətin effektivliyinin və fəallığının artırılması üçün həm də qarşılıqlı etimad, inam mühiti formalaşmalıdır. Bu isə təkcə iqtidardan asılı olan məsələ deyil. Qarşılıqlı etimad mühitinin, əməkdaşlıq formatının yaradılması üçün müxalifət də qolunu çırmalayıb real iş görməlidir".

### COVID-19-a birlik hisslərimizi önə çəkərək qalib gəlmək olar

Hazırda dünyanın bütün ölkələri koronavirus pandemiyası ilə mübarizəyə səfərbər olunub. Azərbaycan da istisnasız olaraq bu mübarizədə olduqca mühüm rol oynayır. COVID-19 infeksiyasının yaratdığı pandemiya reallığı ilə əvvəllər heç bir ölkə qarşılaşmayıb. Odur ki, koronavirus pandemiyası indi hamımız üçün ümumi bəla və ümumi imtahan sayılır. Bu barədə danışan Əlisahib Hüseynov dedi ki, hazırda bu xəstəliyə yoluxma və ölüm göstəriciləri sürətlə artmaqda davam edir. Dünyada COVID-19 infeksiyasına yoluxanların sayı 10 milyonu ötüb. Bu xəstəlikdən dünyasını dəyişənlərin sayı isə 500 min nəfərdən çoxdur. Təəssüflər olsun ki, dünyada genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə baxmayaraq vəziyyəti sabitləşdirmək hələ ki, mümkün olmayıb. Bəzi mütəxəssislərin də qeyd etdiyi kimi, bu, sadəcə pandemiya deyil, bəşəriyyətə qarşı başlanmış silahsız, əsgərsiz bir müharibədir. Amansızlığı ilə dünya müharibələrindən heç də geri qalmayan qeyri-adi bir müharibə.

"Bu gün hər bir ölkə pandemiya ilə öz imkanları çərçivəsində mübarizə aparır. Azərbaycan dövləti isə başlanandan bəri pandemiyaya qarşı çox ciddi və mütəşəkkil surətdə mübarizə aparan ölkələrin sırasında yer alır. Belə ki, pandemiyanın ilk günlərindən Prezident İlham Əliyevin tapşırığı və nəzarəti ilə genişmiqyaslı, kompleks tədbirlər həyata keçirilməyə başlanıb. Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, ciddi karantin rejiminin tətbiq olunması kimi tədbirlər ilk günlərdən həyata keçirilir. Koronavirusla mübarizə üçün 20-dən çox xəstəxana ayrılıb. Həmçinin modul tipli xəstəxanaların inşasına başlanılıb və xəstələrin müalicəsi üçün istifadəyə verilib. Bu xəstəxanalar Bakıda və regionlarda fəaliyyət göstərir, onlar ən müasir avadanlıqlarla təmin ediliblər. Tibbi maska və digər qoruyucu vasitələrin təminatı sahəsində də artıq heç bir problem yoxdur. Doğrudur, ilk günlərdə tibbi maska, digər qoruyucu vasitələr ölkəmizə xaricdən gətirilirdi. Lakin çox qısa zaman kəsiyində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə tibbi maska, digər qoruyucu vasitələr istehsal edən yerli müəssisələrin açılışı oldu.

May ayında sərt karantin rejiminin mərhələli şəkildə yumşaldılmasına başladıqdan sonra təəssüf ki, infeksiyaya yoluxma hallarının sayı yenidən artmağa başladı. "Ümid edirik vətəndaşlarımız da dövlətin pandemiyaya qarşı mübarizəsinə həssaslıqla yanaşacaq, Prezidentimizin çağırışlarına və Operativ Qərargahın tövsiyələrinə ciddi dəstək nümayiş etdirəcəklər. İndi milli həmrəylik zamanıdır. COVID-19 kimi mərhəmətsiz və acımasız bəlalara yalnız birlik və bərabərlik hisslərimizi önə çəkərək qalib gəlmək olar", - deyə DADP sədri bildirdi.

### Korrupsiyaya və korrupsionerlərə qarşı qətiyyətli mövqe müsbət nəticələrini verəcək

Əlisahib Hüseynovla korrupsiyaya qarşı mübarizə tədbirləri barədə də söhbətləşdik. Bu tədbirləri müsbət qiymətləndirən partiya sədri dedi ki, islahatlar prosesinin uğurla başa çatdırılması üçün korrupsiyaya qarşı mübarizənin səmərəli təşkili xüsusi önəm daşıyır: "Bu baxımdan korrupsiyaya qarşı mübarizəni islahatların ümumi tərkib hissəsi hesab etmək olar. Korrupsiyaya qarşı mübarizənin yeni mərhələsi bəzi məmurların, icra başçılarının DTX tərəfindən həbs edilməsi ilə müşayiət olundu. Bu həbslər cəmiyyət tərəfindən də olduqca müsbət qarşılandı.

Korrupsiyaya qarşı mübarizə fasiləsiz və davamlı xarakter almalıdır. Bu, ölkəmizin iqtisadi inkişafı və vətəndaş-dövlət münasibətlərinin sağlam zəmin üzərində qurulması üçün çox vacibdir. Vətəndaşlar dövlətin onları korrupsiya hallarının yaratdığı fəsadlardan və korrupsionerlərə qoruyacağına əmin olmalı, özlərini güvəndə hiss etməlidirlər. Prezident də məhz bunu istəyir. "Hər bir məmur xalqın xidmətçisidir" sözünü dövlət başçısı elə belə, gəlişi gözəl söz kimi demir. İlham Əliyev vəzifəyə təyin etdiyi hər bir məmura tapşırıq verir ki, onlar insanlarla ünsiyyətdə sadə və səmimi olsunlar, vətəndaşları incitməsinlər və maksimum şəffaflıq prinsipi ilə fəaliyyət göstərsinlər. Özü də bütün bu tövsiyə və tapşırıqlar yeni təyin olunan məmurlara məhz ictimaiyyətin gözü qarşısında verilir. Prezidentin bu tövsiyələrinə məsuliyyət hissi ilə yanaşan məmurlar şəffaf və nümunəvi fəaliyyət göstərir, yüksək etimadı doğrultmağa çalışırlar. Əminəm ki, dövlət başçısının korrupsiyaya və korrupsionerlərə qarşı bu cür qətiyyətli mövqeyi öz müsbət nəticələrini verəcək".

### İlham Əliyevin sosial-iqtisadi islahatlar konsepsiyası reallığa söykənir

DADP sədrinin Prezident İlham Əliyevin sosial-iqtisadi islahatlar konsepsiyasına, bu sahədə həyata keçirilən islahatlara münasibətini də öyrəndik. Onun sözlərinə görə, İlham Əliyev kifayət qədər praqmatik siyasətçidir və o, hazırda dünyada yaşanan iqtisadi böhranın yaxın gələcəkdə Azərbaycan iqtisadiyyatına vura biləcəyi zərərləri minimuma endirmək üçün önləyici tədbirlərə start verib. Artıq neftin aparıcı amil olması reallığı aradan qalxır. Deməli, neftdən asılılığın aradan qaldırılması üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi vacibdir. Bir sözlə, neftin hökmranlığı bitmək üzrədir, biz artıq postneft erasına qədəm qoymuşuq.

Pandemiya ilə, eyni zamanda, dünya bazarlarında neftə olan tələbatın azalmasının, neftin qiymətinin aşağı düşməsi posneft mərhələsinə keçidi bir qədər də sürətləndirdiyini bildirən Əlisahib Hüseynov qeyd etdi ki, Azərbaycan iqtisadiyyatının yeni şəraitə uyğunlaşması, adaptasiya olunması üçün geniş imkanlar var: "Azad sahibkarlığın inkişaf etdirilməsi üçün yeni imkanlar açılır. Postneft və postpandemiya dönəmi xüsusilə də kənd təsərrüfatının inkişafına çox ciddi stimul verəcək. Əlaqədar dövlət qurumları aqrar sektorun inkişafına maksimum diqqətlə yanaşmalıdır. Prezident İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar konsepsiyası reallığa söykənir və mən əminəm ki, dövlət başçısının yürütdüyü rasional siyasət həm iqtisadiyyatımızı, həm də cəmiyyətimizi baş verə biləcək hər hansı iqtisadi böhran və təlatümlərdən sığortalayacaq".

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bütün qərarlar vətəndaşların sağlamlığının qorunmasına yönəlib





*Əvvəli 1-ci səh.*

Dünyada COVID-19 infeksiyası yayılmağa başladığı ilk dövrdən, xüsusilə virusun ölkəmizin sərhədlərinə yaxınlaşdığı gündən başlayaraq Azərbaycan hakimiyyəti çevik və bütün istiqamətlər üzrə ciddi tədbirlər həyata keçirməyə başladı. Hökumətin koronavirusla mübarizə sahəsində strategiyası özlüyündə bir neçə istiqaməti əhatə etdi: virusun yayılmasının qarşısının alınması, ölkə səhiyyəsinin və aidiyyəti infrastrukturun koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırılması, iqtisadiyyatın dayanıqlılığının təmin edilməsi və əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı məsələlərin həlli, vətəndaşların hərtərəfli məlumatlandırılması və maarifləndirilməsi.

Azərbaycan dünyada az-az dövlətlərdəndir ki, xalqının sağlamlığını düşünərək virusun yayılmasının qarşısını almaq üçün vaxtında qabaqlayıcı, çevik tədbirlər həyata keçirdi. Prezident İlham Əliyevin sərəncamı ilə bu ilin əvvəlində dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, ümumi strategiyanın həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında Operativ Qərargah yaradıldı, onun fəaliyyəti təşkil olundu. Operativ Qərargahın işinin düzgün təşkili koronavirusla mübarizə strategiyasının effektiv icrasını, qarşıya qoyulan vəzifələrin çevik şəkildə həllini təmin etməyə imkan verir.

Dövlət başçısının tapşırıqlarına uyğun olaraq pandemiyanın qarşısının alınması üçün qətiyyətli addımlar atıldı. Martın 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə dayandırıldı. Bütün kütləvi tədbirlər təxirə salındı və ya ləğv edildi. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq olundu. Ölkənin xarici aləmlə əlaqələri məhdudlaşdırıldı, sərhədlər bağlandı. Virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə beynəlxalq yükdaşımaları və çarter reysləri istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları, digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları dayandırıldı.

Pandemiya ilə mübarizə çərçivəsində səhiyyə, sosial, iqtisadi və s. sahələrdə müxtəlif istiqamətlərdə işlər görüldü. Dövlət koronavirusun Azərbaycanda geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün lazımi işləri həyata keçirdi.

Hökumətin intensiv və düzgün fəaliyyəti sayəsində qısa zamanda səhiyyə infrastrukturu koronavirusla mübarizəyə istiqamətləndirildi, aidiyyəti dövlət qurumlarının fəaliyyəti bacarıqla əlaqələndirildi və bir çox mühüm məsələlər həll edildi. COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi ilə bağlı xəstəxanalar müəyyən edildi və qısa müddətdə 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni klinika" koronavirus xəstələrinin ixtiyarına verildi. Bölgələri də əhatə etməklə ölkədə 2000 çarpayılıq 10 modul tipli xəstəxananın quraşdırılmasına başlandı və onlardan 5-i artıq istifadəyə verilib. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlara cavab verən əlavə tibbi laboratoriyalar alındı və qısa müddətdə onların sayı 26-ya çatdırıldı. Bütün tibb müəssisələrinin texniki təminatı, xüsusi avadanlıqların, dərman preparatlarının, testlərin, diaqnostik alətlər və tibbi ləvazimatların ölkəyə gətirilməsi təmin edildi. Həkimlərin xəstəxanalara səfərbər olunması, onların təminatı məsələləri həll olundu, əməkhaqlarının 3-5 misli miqdarında əlavələr verilməsinə başlandı. Ölkəmizdə qoruyucu vasitələrin, dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu və qısa müddətdə bu sahədə olan problemlər aradan qaldırıldı.

20 mindən artıq vətəndaşımızın ölkəyə qaytarılması təmin edildi, onlar 4-5 ulduzlu hotellərdə karantinə alındı.

Əhalinin sosial təminatı, iqtisadiyyatın dayanıqlılığı, sahibkarlara yardım məqsədilə zəruri tədbirlər görüldü, bu məqsədlərə milyardlarla vəsait ayrıldı. Sosial-iqtisadiyyat sahəsində qısa müddətdə 4 işçi qrupu yaradıldı və onların təklifləri əsasında Nazirlər Kabineti tərəfindən Tədbirlər Planı hazırlanıb təsdiq edildi. Tədbirlər Planının əsas mahiyyəti makroiqtisadi sabitliyi qoruyub saxlamaq, iqtisadiyyata dəstək vermək və əhalinin sosial müdafiəsini təmin etmək olmuşdur.

Paralel olaraq, cəmiyyətlə kommunikasiya, əhalinin maarifləndirilməsi və məlumatlandırılması istiqamətində ardıcıl və intensiv iş aparıldı. Xüsusi karantin rejiminin təşkili ilə bağlı olduqca mürəkkəb və böyük iş görüldü. Qısa zaman ərzində dövlətin bütün imkanları pandemiyaya qarşı səfərbər olundu. Prezident İlham Əliyevin sərəncamları, çoxsaylı tapşırıqları, gündəlik nəzarəti altında həyata keçirilən səmərəli tədbirlər nəticəsində koronavirusla mübarizədə müsbət nəticələr qazanıldı. Azərbaycan hələ virusun ilk yayıldığı zamandan həyata keçirdiyi qabaqlayıcı tədbirlər sayəsində qlobal böhrandan minimum itkilərlə çıxmağı bacaran ölkələr siyahısında yer aldı.

Məhz bu tədbirlərin nəticəsidir ki, dünyanın ən inkişaf etmiş ölkələrində yaranmış acınacaqlı vəziyyət Azərbaycanda müşahidə olunmadı. Ölkəmizin bu istiqamətdə gördüyü işlər dəfələrlə Ümumdünya Səhiyyə Təşkilatı, ayrı-ayrı beynəlxalq qurumlar, dövlət və hökumət başçıları tərəfindən xüsusi qeyd edilib. Respublikamızın koronavirusa qarşı mübarizə üsulu ÜST tərəfindən digər dövlətlərə nümunə göstərilib.

Əhalinin sağlamlığı və onun təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövləti üçün ən mühüm və prioritet vəzifədir. Verilən tövsiyələr, qəbul edilən qərarlar vətəndaşların sağlamlığının qorunmasına yönəlib. Dövlət rəhbəri çıxışlarının birində "Biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insanların sağlamlığı" fikrini səsləndirmişdi. Dövlətimiz insanların sağlamlığını seçdi və düzgün qərarlar qəbul etdi. Lakin müşahidələr onu göstərir ki, vətəndaşların bir qismi öz sağlamlığına qarşı biganədir, qaydalara məsuliyyətsiz yanaşır, maska taxmır. Elə ona görə də digər ölkələrdə olduğu kimi, Azərbaycanda da karantin rejiminin yumşaldılması yoluxmaların ciddi artımına səbəb oldu. Bəzi vətəndaşlar yumşalma tədbirlərindən istifadə edərək qaydalara etinasız yanaşdı. Bu da koronavirusa gündəlik yoluxmaların və ölüm sayının artımı ilə nəticələndi. Hazırda hər kəsi narahat edən məsələ statistikanın hələ də yüksək səviyyədə qalmasıdır. Ölkədə karantin rejiminin uzanmasının səbəbi də məhz bu zəncirvari yoluxmanı qırmaqdır.

Koronavirusla mübarizədə müsbət nəticənin əldə olunması təkcə hökumətin, Operativ Qərargahın fəaliyyətindən asılı deyil, həm də bütövlükdə cəmiyyətimizin, hər bir vətəndaşın məsuliyyətli davranışı ilə bu pandemiyaya qalib gəlmək olar.

Dövlət üzərinə düşən vəzifələri layiqincə həyata keçirir. İndi qalır vətəndaşların üzərinə düşən vəzifələr. İndiki şəraitdə koronavirusla mübarizədə uğurun əsas şərti məhz vətəndaşların məsuliyyətindən asılıdır. Bu mübarizədə cəmiyyət olaraq birlik nümayiş etdirməli, tətbiq edilən qaydalara ciddi yanaşmalı, tibbi maskalardan istifadə etməli, sosial məsafə saxlanılmalıdır. Bu, hər birimizin şəxsi məsuliyyəti, vətəndaş borcudur. Məsuliyyətli olaq, özümüzü, ailəmizi, ətrafımızı, dolayısı ilə xalqımızı gözəgörünməz düşməndən qoruyaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***



# Təhlükə zəncirini qıraq

## Karantinlə sabitləşən yoluxma sayını məsuliyyətsizliklə mənfi yönə istiqamətləndirməyək

Dünyanın üstünə qara bulud kimi çökən yeni növ koronavirus (COVID-19) pandemiyası yer üzünü vahimədə saxlamaqda davam edir. Zaman keçdikcə COVID-19 qarşısıalınmaz bir aqressiya ilə yoluxma və ölüm sayını daha vahiməli rəqəmlərə daşıyır. Virus yayıldığı ilkin mərhələdə demək olar ki, bütün ölkələrdə tətbiq olunan karantin rejimləri sayəsində müəyyən qədər kontrol altına alındı. Amma yumşaldılmalar ərəfəsində ikinci və daha təhlükəli dalğası ilə əldə olunan müsbət nəticələri bir həmlədəcə məhv etdi. İndi dünya yenidən qapanıb, ölkələr sərt karantin rejiminə qayıdıb və hələlik tibbi çarəsi tapılmayan bu bəladan sosial məsafə, maska istifadəsi və gigiyena şərtlərinə əməl etməklə qorunmağa çalışır.

Təəssüf ki, Ümumdünya Səhiyyə Təşkilatının, bütün dünyada hökumətlərin ciddi səylərinə baxmayaraq, hələ də pandemiyanın qarşısını almaq və ya onu əsaslı şəkildə lokallaşdırmaq mümkün olmur.

### Sərt karantin rejimi qaçılmaz oldu

Bütün dünyada olduğu kimi, Azərbaycanda da yumşaldılmalar ərəfəsində yoluxma sayında artım müşahidə olundu. Bu həssas dövrdə bir çox vətəndaşların məsuliyyətsizlik nümayiş etdirmələri koronavirusla birinci mərhələdə əldə edilən müsbət dinamikanı əks yönə istiqamətləndirdi. Qısa zaman kəsimində gündəlik yoluxma sayı 500-ün üzərinə çıxdı. Elə bu səbəbdən də hökumət dərhal təhlükənin qarşısının alınması istiqamətində zəruri addımlar atdı. Ölkədə karantin rejimi uzadıldı, iyunun 12-dən etibarən yoluxma sayı yüksək olan bəzi şəhər və rayonlarda sərt karantin rejimi elan olundu. Amma məlumdur ki, hələ də bəzi insanlar təhlükənin varlığını olduğu kimi dəyərləndirmir, bu həssas dönəmdə də məsuliyyətsiz davranışlar sərgiləyirlər.

Bu mərhələdə də COVID-19-a yoluxma hallarının sürətlə artması yenidən zəruri addımlar atılmasını labüd etdi. Və sərtləşdirilmiş karantin rejimi daha 2 həftə müddətinə uzadıldı. Təəssüf ki, bu zaman sərt karantin rejimi elan edilən şəhər və rayonlarımızın siyahısına yeniləri də əlavə olundu. Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına əsasən, Goranboy, Göygöl və Mingəçevir şəhərləri, Bərdə, Xaçmaz, Samux, Siyəzən və Şəki rayonları daxil olmaqla, Bakı, Cəlilabad, Gəncə, Lənkəran, Masallı, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron rayonunda xüsusi karantin rejimi iyulun 5-dən 20-dək uzadıldı. Xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda karantinin qüvvədə olduğu tarixlərdə həftəsonu (şənbə-bazar) bütün ictimai nəqliyyat dayandırıldı.

Eyni zamanda ölkə ərazisində ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda 5 nəfərdən artıq qruplarda cəmləşmək qadağan edildi.

### Vəfat edən hər bir vətəndaş millətimiz, dövlətimiz üçün böyük itkidir

Amma hələ də ölkəmizdə təhlükəli vəziyyət davam edir və yoluxmaların sayı yenə də yüksək səviyyədədir. Təəssüf ki, indiyə qədər koronavirusa yoluxanların sayı 20 mini keçib, 200-dən artıq vətəndaşımız həyatını itirib. Təbii ki, paralel olaraq sağalma sayı da kifayət qədər çoxdur, amma itirilən hər bir vətəndaş millətimiz, dövlətimiz üçün böyük itkidir. Mütəxəssislərin də dəfələrlə vurğuladığı kimi, koronavirusu dünyanın bəlasına çevirən onun yoluxuculuq sürətidir. Elə bu baxımdan da yoluxma sayı bir nəfər olsa belə, bu yenə də çox sayılır. Arzuolunan isə COVID-19-un nəfəsini tamamilə boğmaqdır. Bunun yolu isə birdir: vətəndaş həmrəyliyi göstərərək pandemiyanın şərtlərinə əməl etmək.

### Koronavirusla bağlı xoşbəxt sonluğa mane olanlar

Bütövlükdə Azərbaycan cəmiyyəti koronavirusun yayılmasının qarşısını almaq üçün həyata keçirilən məhdudiyyət tədbirlərini anlayışla qarşılayır, məsuliyyət, nizam-intizam göstərir. Bununla yanaşı, hələ də aramızda karantin rejiminin qaydalarına əməl etməyənlər var.

Nəticədə hazırda koronavirusla bağlı gözlədiyimiz xoşbəxt sonluğa çatmağımıza mane olan hallar müşahidə olunmaqdadır. Karantin rejimi, tətbiq olunan cərimələr hələ də bir çoxlarının məsuliyyətsizliyinin önünə keçməkdə acizdir. İctimai nəqliyyatda, qapalı məkanlarda maskalardan istifadə etməmək, koronavirusa yoluxmuş qohumların və qonşuların ziyarəti, dəfn mərasimlərinin, müxtəlif məclislərin təşkilinə dair faktların şahidi oluruq. Yaşadığımız bu çətin günlərdə şəxsi istirahətini düşünənlər, icazə olmayan rayonlarda dincəlmək istəyənlər, şadlıq düzənləyənlər, toy çaldıranlar, sosial məsafə gözləməyənlər var. Düşünülmür ki, bu sayədə virusa qalib gəlmək əvəzinə, onun əhatə dairəsini daha da genişləndiririk.

Məsələn, iyulun 5-də həyata keçirilən nəzarət tədbirləri ilə epidemiya əleyhinə rejimi pozan respublika üzrə 11 iaşə obyektinin fəaliyyət göstərməsi faktı aşkarlanıb. Həmin obyekt sahiblərinin 1-i inzibati həbs, 10 nəfər isə inzibati cərimə edilib. Ümumilikdə həmin gün ərzində respublika üzrə xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə 4 nəfər inzibati həbs edilib, 2294 nəfər inzibati cərimə olunub ki, onlardan da 548 nəfəri tibbi maskadan istifadə etməyənlərdir.

### Cavabsız suallar

Bu gün COVID-19-la bağlı bütün dünyanı maraqlandıran suallar var, amma onların bir çoxu hələ ki, cavabsız qalıb. Cavab axtarışları davam edir, hər gün yeni nələrsə öyrənirik. Qeyri-müəyyənlik hamını narahat edir. Çünki hər birimizin ailəsi, övladları, yaşlı valideynləri, yaxınları var. Onlar hər gün risk altındadır. Amma o da faktdır ki, bu riski yaradan da yenə özümüzük, sadə insanlardır.

Pandemiyanın tələblərinə laqeyd, biganə yanaşma bizi çıxılması çətin olan vəziyyətə sürükləyir. Artıq hər birimizin ətrafında koronavirusa yoluxmuş şəxslər, ailələr var və biz onların necə böyük problemlə üzləşdiklərini görürük. Bu, hər birimizin məsuliyyətli davranış nümayiş etdirməsi, birliyimizi, həmrəyliyimizi daha da gücləndirmək üçün SOS siqnalı olmalıdır.

### Bizi bəladan qoruyan üç sadə qayda...

Amma yaşana biləcək faciəvi ssenarilərin qarşısına keçmək də mümkündür və bu, bizim əlimizdədir. Təhlükəni şaxələnmədən beşiyində boğa bilərik. Hökumət tərəfindən görülən tədbirlərin effektivliyi həm də fərdi qaydada hər bir vətəndaşın üzərinə düşən müvafiq məsuliyyəti yerinə yetirməsindən asılıdır. Bütün bunlar milli təhlükəsizlik, həmrəylik məsələsidir və vətəndaşlardan maksimal şəkildə diqqətli və məsuliyyətli olmaq tələb edir.

Özünüzün, ailənizin, doğmalarınızın təhlükəsizliyi üçün qoyulan qaydalara riayət edin, sosial nəzarəti gücləndirin. Məsuliyyətsiz davrananlarla bağlı tədbir görülməsi üçün aidiyyəti qurumlara məlumat verin. Koronavirus əlamətləri hiss etdikdə evdə özünümüalicə ilə sağalmağa çalışmayın və dərhal aidiyyəti üzrə məlumat verin.

Ən əsası, xəstəliyə yoluxmamaq üçün lüzumsuz yerə küçəyə çıxmayın. Əks təqdirdə xəstəliyə yoluxma və yoluxdurma faktoruna çevrilirsiniz.

Hər yerdə sosial məsafəni qoruyun, qapalı məkanlarda, kütləvi yerlərdə maskadan düzgün istifadə edin, mütəmadi olaraq əllərinizi sabunla yuyun.

Məhz bu üç sadə qayda bizi böyük təhlükədən qoruyacaq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Pandemiya dövründə də «Şərq-Qərb nəqliyyat dəhlizi» ilə beynəlxalq yük daşımaları fasiləsiz həyata keçirilir

*Əvvəli 1-ci səh.*

Hazırda Ələt Beynəlxalq Dəniz Ticarət Limanı 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malikdir. Gələcəkdə limanın imkanları 25 milyon ton yükə və 1 milyon konteynerə qədər artırıla bilər. Odur ki, "Şərq-Qərb nəqliyyat dəhlizi"nə maraq getdikcə artmaqdadır. Hələ bir il əvvəl Azərbaycana səfər etmiş Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Ələt Beynəlxalq Dəniz Ticarət Limanına gedib və buradakı imkanlarla yerində tanış olub. Artıq bu dəhlizə bir neçə Avropa ölkəsi qoşulub. Digər tərəfdaş dövlətlər də dəhliz vasitəsilə yükdaşımalara böyük maraq göstərir.

"Şərq-Qərb nəqliyyat dəhlizi" tam şəkildə fəaliyyət göstərir. 2019-cu ildə bu dəhlizlə 8,7 milyon ton yük daşınıb. Cari ilin ilk dörd ayı ərzində bu rəqəm artıq 3 milyon tona çatıb. Azərbaycan, həmçinin "Şimal-Cənub nəqliyyat dəhlizi"nin fəal iştirakçısıdır. Dəhlizin Azərbaycan hissəsində bütün işlər başa çatdırılıb. Bu dəhliz vasitəsilə keçən il 2,1 milyon ton, bu ilin ilk dörd ayı ərzində isə 800 min ton yük daşınıb.

Təsadüfi deyil ki, bu il iyulun 2-də Əfqanıstan Prezidentinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun videokonfrans vasitəsilə keçirilən görüşdə də "Şərq-Qərb nəqliyyat dəhlizi" əsas mövzulardan biri olub.




"Şərq-Qərb nəqliyyat dəhlizi" çərçivəsində Azərbaycan Əfqanıstan və Türkmənistanla əməkdaşlıqda müsbət nəticələr əldə edib. Dövlət başçısının 2018-ci ilin noyabr ayında Türkmənistana rəsmi səfəri zamanı imzalanmış 21 sənəddən 9-u nəqliyyat sektoruna aid olub. Bu ilin birinci yarısında Ələt Beynəlxalq Dəniz Ticarət Limanında Türkmənistan və əks istiqamətdə 1,5 milyon tondan çox yük aşırılıb. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 28 faiz çoxdur. Aşırılan quru yükün həcmi 7,7 dəfə artaraq 370 min tondan çox olub. Türkmənistan tərəfi limanda tikilməsi nəzərdə tutulan gübrə terminalının idarə olunması üzrə yaradılacaq konsorsiumda iştiraka dəvət edilib.

Qeyd edək ki, Türkmənistandan Əfqanıstandakı iki quru limanına - əvvəlcə Akina, sonra Toraqundi limanına dəmiryolu uzadılıb. Beləliklə, xüsusilə Toraqundi limanı Əfqanıstana imkan verib ki, Azərbaycana birbaşa xətt çəksin.

İki il əvvəl Lapis Lazuli marşrutunun Bakı-Tbilisi-Qars dəmir yolu ilə birləşdirilməsindən sonra artıq Əfqanıstandan yüklər Türkmənistan üzərindən Azərbaycana, daha sonra Qərb istiqamətində daşınmağa başlanıb. 2018-ci ilin dekabr ayında Əfqanıstandan yola salınan ilk sınaq yükü 12 gün ərzində Bakı limanına çatdırılıb. Bu ilin yanvar-may ayları ərzində Azərbaycan vasitəsilə Əfqanıstan istiqamətində və əks istiqamətdə 55,5 min ton yük daşınıb. Azərbaycan yük təyyarələri ilə həmin dövrdə ölkəmizə və digər ölkələrə məxsus 12 min tona yaxın yükü Əfqanıstana çatdırıb.

"Şərq-Qərb nəqliyyat dəhlizi"nin imkanlarının daha da artırılması üçün səylər davam etdirilir. Azərbaycan, Türkmənistan və Əfqanıstan prezidentlərinin videokonfrans vasitəsilə keçirilən görüşündə də yükdaşımaların optimallaşdırılması üçün tariflərin unifikasiyasının həyata keçirilməsinin vacibliyi qeyd olunub. Sözügedən tədbirin nəticələrinin və gələcəkdə atılacaq addımların müzakirəsi üçün üç ölkənin nəqliyyat strukturlarının işçi görüşünün keçirilməsi də təklif edilib. Bu da dəhlizin imkanlarından getdikcə daha çox istifadə olunacağını bildirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# *Operativ Qərargah:* Azərbaycanda koronavirusa daha 513 yoluxma faktı qeydə alınıb, 440 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 513 yoluxma faktı qeydə alınıb, 440 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 20 min 837 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 12 min 182 nəfər müalicə olunaraq sağalıb, 258 nəfər vəfat edib. Aktiv xəstə sayı 8397 nəfərdir.

Ötən müddət ərzində 522 min 773 test aparılıb. Dünənki test sayı isə 6240-dır.

## "GƏNCƏNİN SƏSİ" - 100



# 100 ilin şərəf salnaməçisi

**"Biz fəxr edə bilərik ki, milli mətbuatımızın böyük tarixi var. Bu, bizim böyük sərvətimizdir, dəyərimizdir".**

**İlham ƏLİYEV**

100 rəqəminin qəribə cazibəsi var. Nəyinsə qədimliyini, tarixinin çox-çox əvvəllərə aid olmasını göstərmək üçün 100 rəqəmini misal gətirirlər. "100 ilin işidir" deyirlər. Yaxud da daha qətiyyətli, daha inamlı olduğunu sübuta yetirmək üçün "100 il qalsa da" kəlməsi ilə işin mümkünsüzlüyünə inam yaratmağa çalışılır. Demək, 100 elə bir rəqəmdir ki, onda həm tarixilik, qədimlik, həm yaş, həm də inamın və inadın gücü öz təsdiqini tapır. 100 il həm də bir əsr deməkdir. Yerin, göyün, yaranmışların tarixinin ölçüldüyü əsr!

"Gəncənin səsi" qəzetinin tarixini də öyrənmək üçün müraciət etdiyimiz qəzet toplularında 100 ilin - bir əsrin müdrikliyinin dəfələrlə şahidi olduq.

100 ildə Gəncə dəyişibmi? Çətinliklərə, məhrumiyyətlərə necə sinə gərib? Mədəniyyətini, tarixini, adət-ənənəsini qoruyan xalqa arxa-kömək olubmu? Dilimizin şirinliyinə, rəvanlığına töhfə verə bilibmi? Bir-birindən fərqli iki ictimai-iqtisadi formasiyalarda oxucu itkisinə məruz qalmayıb ki?

Oxucunu inandıra bilməsən, onun istədiyini təqdim etməsən, səndən uzaqlaşa bilər. Lakin bütün arxiv materiallarında, saralıb-solmuş qəzet səhifələrində bir məqamın şahidi olduq. "Gəncənin səsi" adı dəyişilsə də, amalı dəyişməyib. Daim insanların arzusuna qanad, sevincinə şərik olub. Yeri gələndə hakim olub, doğru yolu nişan verib. Şəhidinə yas tutub, uğurlara yol açıb. Nəbzi Gəncə ilə birlikdə vurub. Müxtəlif dövrlərin kəskin qadağalarına baxmayaraq jurnalistlər ürəklərindən keçənləri hiss etdirməyə çalışıb. Bu, heç də hər zaman uğurlu alınmayıb. Təsadüfi deyil ki, ən dəyərli ziyalılarımız repressiya qurbanı olublar. "Qırmızı Gəncə"nin (1920) ilk redaktorları Məmmədkazım Ələkbərli, Balabəy Həsənbəyov, qəzetin məsul katibi Cəfər Bağır belə tale yaşayıblar. Milli-mənəvi dəyərlərimizə sahib çıxdıqları üçün, xalqın ruhunu oxşayan fikir söylədiklərinə görə "xalq düşməni" damğası ilə "mükafatlandırılıblar".

"Kirovabad bolşeviki" qəzetinə qədər çıxan "Qırmızı Gəncə" ərəb əlifbası ilə, "Zərbə" latınla, "Kirovabad bolşeviki" kirillə çıxıb. İşlətdikləri əlifba kimi deyim tərzi də fərqli olub. Yəni "Zərbə"də türk ləhcəsi qabarıq hiss olunsa da, "Kirovabad bolşeviki"ndə rus terminləri daha çoxdur. "Zərbə"də yazıların böyük əksəriyyəti imzasız verilib. Sonrakı dövrdə nəşr olunan qəzetin özəlliyi isə birinci səhifədə ittifaq respublikalarından verilən çox miqdarda xəbərlərin yer almasıdır. Elə digər səhifələrdə də ozamankı SİTA (Sovet İttifaqı Teleqraf Agentliyi) xətti ilə verilən materiallar çoxluq təşkil edirdi. Tənqidi yazılar əvvəlki adla çıxan qəzetlərdə vaxtaşırı verilib. Hətta bunu qara lövhə formatında təqdim ediblər.

Gəncə kimi qəzetin də adı dəfələrlə dəyişib, taleyi keşməkeşli olub. Müxtəlif arxivlərdə




apardığımız araşdırmalar zamanı qəzetin adının 7 dəfə dəyişdirilməsi bir daha təsdiqini tapıb. Qəzet 1920-ci ilin may ayının 5-də "Qırmızı Gəncə" adı ilə ilk dəfə işıq üzü görüb. Beləliklə, "Qırmızı Gəncə", "Zərbə", "Kirovabad bolşeviki", "Kirovabad fəhləsi", "Gəncə kommunisti" (Gəncə vilayət mərkəzi olduğu zaman qəzet qısa bir müddətdə bu adla çıxıb), "Kirovabad kommunisti" və ən nəhayət, "Gəncənin səsi" adı ilə çap olunub. Bir məqamı qəbul edək ki, həmin dövrdə Gəncədə müxtəlif illərdə "Yeni Gəncə", "Şura Gəncəsi", "Sosializmin yolu" kimi qəzetlər də fəaliyyət göstərib, şəhərin ictimai-sosial həyatını işıqlandırıb. İndiki qəzet 1990-cı il yanvarın 1-dən etibarən "Gəncənin səsi" adı ilə oxuculara təqdim olunub.

Müasir dövrdə mətbu nəşrin qarşısında daha məsul vəzifələr durur. Oxucunu məlumatlandırmaq və maarifləndirmək, vətənpərvərlik tərbiyəsini yüksək səviyyədə təbliğ etmək, milli-mənəvi dəyərlərə sahib çıxmaq, dövlətçiliyimizin hər an sadiq və müsəlləh əsgəri olmağı bacarmaq, xain sözə, məsuliyyətsiz şəkildə təhrif olunan fikirlərə sanballı cavab vermək, Vətəni sevməyənlərə duracağı, layiq olduğu yeri, məqamı göstərmək, dövlət atributlarına sədaqət həmin mənəvi öhdəliklərdəndir. Xalqı məhv etməyin bir yolu da dilindən keçir. Əgər onun dili yoxdursa, demək yaşam haqqı sıfıra bərabərdir. "Gəncənin səsi" bütün bu saydıqlarımız dəyərləri özünün varlıq məramı hesab edir. Ana dilimizin saflığı uğrunda, necə deyərlər, qələm çalır. Bunu yəqin ki, dəyərli oxucularımız da təsdiqləyər.

100 yaş ululların yaşıdır. 100 yaş imtahandan şərəflə çıxanların yaşam pasportudur. 100 yaş özünütəsdiqin ən bariz göstəricisidir...

100 yaşlı "Gəncənin səsi" bütün bunların öhdəsindən şərəflə, qətiyyətlə, məsuliyyətlə gəlib və bu missiyasına daim sadiq qalacaq!.. Üstəlik, həm də doğma Gəncəmizin şərəf salnaməsi funksiyasını bundan sonra da uğurla yerinə yetirəcək.

**Rəfiqə SADIQOVA,**
***"Gəncənin səsi" qəzetinin Baş redaktoru***

## *Müdafiə Nazirliyi:* Azərbaycan ərazisindən İrana qarşı heç bir addım atılmayıb və atılmayacaq



Azərbaycan Respublikasının Müdafiə Nazirliyi İrana hava zərbələri endirdiyi iddia edilən və Rusiyanın "Konteyner" RLS-i tərəfindən aşkarlanan naməlum hərbi təyyarələrin Azərbaycanın hava məkanından istifadə etmələri barədə yayılan məlumatlara münasibət bildirib.

Müdafiə Nazirliyindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, ermənipərəst qüvvələrin yaydığı bu xəbərin heç bir əsası yoxdur və bu, yalandır. Bu cür məlumatın yayılması Azərbaycan-İran münasibətlərinə xələl gətirmək məqsədi güdür. Tamamilə aydındır ki, iki ölkə arasında xoş münasibətlərə zərər vurmaq məqsədilə yayılmış məlumat şər və böhtandan başqa bir şey deyil.

"Azərbaycan ərazisindən qonşu ölkə olan İran İslam Respublikasına qarşı indiyədək heç bir addım atılmayıb və bundan sonra da atılmayacaq", - deyə Müdafiə Nazirliyinin açıqlamasında bildirilib.

## Prokurorluq orqanlarının fəaliyyətinə dair məlumatların operativ çatdırılması məqsədilə sosial şəbəkələrdə iş gücləndirilib




Prokurorluq orqanlarının fəaliyyətinə dair məlumatların ictimaiyyətə, o cümlədən kütləvi informasiya vasitələrinə operativ şəkildə çatdırılmasını təmin etmək üçün "Facebook", "Instagram", "Twitter", "YouTube", "Telegram" və "LinkedIn" sosial şəbəkələrində mövcud və yeni hesablar aktivləşdirilib. Bununla əlaqədar hazırlanmış xüsusi videoçarx Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən paylaşılıb. Videoçarxı **https://youtu.be/MgNjFYqUp7M** keçidi vasitəsilə izləmək mümkündür.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin səhifələrdə prokurorluq orqanlarının fəaliyyətinə dair informasiyalar çevik və operativ qaydada paylaşılacaq. Səhifələrin zamanın tələbinə uyğun olaraq vizual və texniki baxımdan gücləndirilməsi işləri davam etdirilir.

Qeyd edək ki, məlumat mübadiləsi zamanı kütləvi informasiya vasitələri kimi, sosial media da əhəmiyyətli rola malikdir. Sosial media hesabları vasitəsilə insanlar məlumatları paylaşmaqla yanaşı, həm də bir-biri ilə ünsiyyət qura bilirlər. Bu gün ən məşhur və fəal sosial media vasitələrindən biri sosial şəbəkələr hesab edilir. Məhz bu baxımdan prokurorluğun da fəaliyyəti ilə bağlı məlumatların sosial media hesablarında daha geniş yayılması ictimaiyyətin operativ şəkildə maarifləndirilməsi işinə mühüm töhfə verəcək.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Mərkəzi Maliyyə və Mühasibatlıq İdarəsi üçün İctimai Sektor üzrə Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən mühasibat uçotu proqramının yazılması, sazlanması və 2020-ci ilin sonunadək texniki dəstəyin göstərilməsi xidmətlərinin satın alınması məqsədilə 05.03.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **BİNS OFT LTD şirkəti** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərsu" ASC əməkdaşlarının COVID-19 test analizlərinin aparılması xidmətinin satın alınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iştirak etmək istəyən iddiaçılar aşağıdakı ünvana - Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin Satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, telefon: 431-47-67/2288) müraciət edə bilərlər.

İddiaçılar imzalanmış və möhürlənmiş təkliflərini **16 iyul 2020-ci il saat 16:00-dan** gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər baxılmadan geri qaytarılacaqdır.

Təkliflər "Azərsu" ASC, Bakı şəhəri, Moskva prospekti, 67 nömrəli ünvanda **17 iyul 2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## ABŞ-da iki təyyarə toqquşdu



ABŞ-ın Aydaho ştatında Ker-d'Alen gölü üzərində iki kiçikmühərrikli təyyarə toqquşub.

Bu barədə yerli şerif Rayan Higginsə istinadən "CNN" telekanalı xəbər verir.

Məlumata görə, təyyarələrin toqquşması nəticəsində 8 nəfər həlak olub.

Bildirilir ki, təyyarələrin parçaları göldə batıb. Qalıqların və meyitlərin sudan çıxarılması üçün əməliyyat keçirilir.

## Yaponiyada daşqınlar 40 nəfərin həyatına son qoydu



Yaponiyanın cənub-qərbindəki Küsü adasında çayın daşması və torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 40 nəfərə çatıb. Bu barədə yerli NHK telekanalı xəbər verir.

Məlumata görə, ölənlərdən 14-ü Kumamoto prefekturasında suyun altında qalmış Qocalar evinin sakinləridir. Eyni zamanda 12 nəfər itkin düşmüş hesab olunur. Onların axtarışları davam etdirilir.

Yağıntılardan ən çox Kumamoto prefekturası ziyan görüb. Orada təxminən 1000 hektar ərazi suyun altında qalıb. Təxliyə mərkəzlərində hazırda təxminən 1500 adam var. Çayın daşması və torpaq sürüşməsi elektrik enerjisinin verilişini dayandırıb, buna görə də Kumamotoda 4,7 min ev işıqsız qalıb.

Küsü adasında güclü yağışlar dünən də davam edib.

## Xorvatiyada parlament seçkilərində hakim partiya qələbə qazandı

Xorvatiyada keçirilən parlament seçkilərində hazırkı Baş Nazir Andrey Plenkoviçin rəhbərlik etdiyi Xorvatiya Demokratik Birliyi Partiyası qələbə qazanıb. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Məlumata görə, 151 deputat yerinə malik birpalatalı parlamentdə (Sabor) 69 yeri sağ mərkəzçi Xorvatiya Demokratik Birliyi Partiyası, 42 yeri Prezident Zoran Milanoviçə yaxın olan "Perezaqruzka" Sosial Demokrat Partiyası, 15 yeri estrada müğənnisi və iş adamı Miroslav Şkoronun "Dvijeniye za Oteçestvo" Partiyası, 8 yeri isə "Most" Partiyası tutub.

## Monqolustanın sabiq baş naziri 6 il iş aldı



Monqolustanın sabiq baş naziri Jarqaltulqın Erdenebat 6 il müddətinə həbs cəzasına məhkum olunub. Bu barədə "Anadolu" Agentliyi xəbər verir.

Məlumata görə, hökmü paytaxtın Suxbaatar rayonu məhkəməsi çıxarıb.

Keçmiş hökumət başçısı cəzasını ümumi rejimli həbsxanada çəkəcək.

Xatırladaq ki, ötən ayın 24-də Monqolustanda keçirilmiş parlament seçkilərində Jarqaltulqın Erdenebat təcridxanada ola-ola deputatlığa namizədliyini irəli sürmüş və Selenqe dairəsində qələbə qazanmışdı.

## Türkiyədə qanadlı raketin uğurlu sınağı



Türkiyədə ilk dəfə olaraq "Atmaca" qanadlı raketindən istifadə olunub.

Bu barədə Türkiyə Prezidenti Administrasiyası yanında Müdafiə Sənayesi İdarəsinin başçısı İsmail Dəmir məlumat verib. Onun dediyinə görə, raket 200 kilometrdən artıq məsafədə suüstü hədəfi məhv etmişdir.

"Bütün tapşırıqlar uğurla icra edilmişdir. Tezliklə bu raket Türkiyə Ordusunun sərəncamına veriləcək", - deyə Dəmir bildirmişdir.

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi və Ani Ödənişlər Sisteminin arxitekturasında istifadə olunan Oracle VBİS lisenziyalarının dəstəklənməsi xidmətinin satın alınması ilə bağlı açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 07 avqust 2020-ci il saat 12:00-da dövlət satınalmalarının vahid internet Portalında (https://etender.gov.az/) (bundan sonra - Portal) keçiriləcəkdir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün "ASAN ödəniş" sistemi vasitəsilə Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 200 (iki yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portaldan əsas şərtlər toplusunu əldə edə bilərlər:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 18 sentyabr 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faiz məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *xidmətin göstərilməsi üzrə ən azı 2 (iki) sertifikatlaşdırılmış mütəxəssisin olmasını təsdiq edən sənədlərin surəti;*
- *iddiaçının müvafiq sahə üzrə ən azı 2 (iki) illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *iddiaçının təklif olunan malların satılmasına müvəkkil edildiyini təsdiq edən Avtorizasiya forması (Manufacturer Authorization Form);*
- *iddiaçının ixtisas uyğunluğuna dair tenderin əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını **07 avqust 2020-ci il saat 11:00-a** qədər, digər tələb olunan sənədləri isə ən geci **27 iyul 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Xidmətlərin göstərilməsi müddəti: **26 avqust 2020-ci il tarixdən** 2 (iki) il ərzində həyata keçirilməlidir.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurunun hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## "Bakı Metropoliteni" QSC müxtəlif növ yastıq və yastıq məmulatlarının satın alınması üzrə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT - 1. **Müxtəlif növ yastıq və yastıq məmulatlarının satın alınması**

**İştirak haqqı - 300 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **23 iyul 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **04 avqust 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **05 avqust 2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti

### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti tibbi və digər inventarların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500 (beş yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK: CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq olunmuş);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (06.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (06.07.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışları qəbul ediləcəkdir);*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **27.07.2020-ci il saat 15:00-a** qədər və tender təklifini **06.08.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07.08.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan müxtəlif növ qayışların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 iyul 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan paronit, nabivka və əyləc lentlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 iyul 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti struktur idarələrinə tələb olunan sumbata kağızları kəsici və itiləyici laqonda və dəzgah daşlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 iyul 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ "AZƏRBAYCAN"

### *qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuat yayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələri üçün çap və mətbəə mallarının satın alınması məqsədilə 11.03.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində **"İDEALPRİNT" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə nasos aqreqatları üçün elektrik idarəetmə lövhələrinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

*"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə nasos aqreqatları üçün elektrik idarəetmə lövhələrinin satın alınması*

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə oxşar mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş müqavilələr və keyfiyyət uyğunluğuna dair göstəricilər (keyfiyyət zəmanəti, mənşə sertifikatı və digər standartlara dair təsdiqedici sənədlər).**

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 300 manatdır.**
**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 avqust 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **13 avqust 2020-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **14 avqust 2020-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi qələm dostları Dağbəyi İsmayılova əzizi
**ŞİRAZ QASIMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Protokol sektorunun müdiri Nigar Məmmədovaya anası
**AYBƏNİZ HƏSƏNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi Ağdaş rayonu üzrə Maliyyə şöbəsinin rəisi
**ƏHMƏDƏLİ HACIYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva, professor-müəllim kollektivi və bütün əməkdaşları universitetin kafedra müdiri, polis polkovniki Natiq Qasımova həyat yoldaşı
**KÖNÜL QASIMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Təhsil nazirinin müşaviri Elnur Məmmədova əzizi
**AYBƏNİZ HƏSƏNOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İlham Əliyev və Kamilə Əliyeva Qasımovlar ailəsinə əzizləri
**KÖNÜL XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Maliyyə naziri Samir Şərifova əzizi
**HƏQİQƏT ŞƏRİFOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Psixologiya kafedrası və Eksperimental psixologiya ETL-nin əməkdaşları Elnarə Əhmədovaya anası
**ZİVAYƏT NURƏDDİN QIZI MUSTAFAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədova əzizi
**SOLMAZ MUSTAFAYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin kollektivi mərkəzin rəisi Rəhman Məmmədova əzizi
**SOLMAZ MUSTAFAYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəki Regional Ədliyyə idarəsinin rəisi Abdulla Yusifov və idarənin kollektivi Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədova əzizi
**SOLMAZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

*Gündəlik qəzet*

**Tiraj 6050**
**Sifariş 1668**
**Qiyməti 40 qəpik**